AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

7 dekabr 2017-ci il | № 85-88 (9179) | www.seanews.az | Qiyməti 50 qəpik


## BU SAYIMIZDA

### AXDG-DƏ ÜZƏN HEYƏTİN İŞƏ QƏBULU İLƏ BAĞLI YENİLİYİN TƏTBİQİNƏ BAŞLANILIB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamenti (İRİD) tərəfindən üzən heyətin işə qəbulunda yeniliyin tətbiqinə başlanılıb.*

Səh. 2

### "HƏYATIMI DƏNİZSİZ TƏSƏVVÜR ETMİRƏM"



***Gündüz Qədimov 1954-cü ildə Biləsuvar rayonunda doğulub. 1970-ci ildə Politexnik Texnikumuna daxil olub. Əmək fəaliyyətinə Ağdam kənd təsərrüfatı texnika birliyinin təmir emalatxanasında çilingər kimi başlayıb. Burada cəmi bir il işləyib. Dəniz eşqi onu 1977-ci ildə "Xəzərdənizneftdonanma" idarəsinə gətirib.***

Səh. 3

### AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI QAZAXISTANIN UNİVERSİTETİ İLƏ MEMORANDUM İMZALAYIB



***Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA) Qazaxıstanın universiteti ilə memorandum imzalayıb.***

Azərbaycan Dövlət Dəniz Akademiyasının beynəlxalq əlaqələri genişlənir. ADDA-nın bu istiqamətdə ən yaxın tərəfdaşlarından biri Qazaxıstanın Ş.Yesenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universitetidir.

Səh. 4

### GƏMİÇİLİYİN NÜMAYƏNDƏSİ "DƏNİZDƏ VƏ QURUDA NEFT DAĞILMALARINA NƏZARƏT" ADLI KONFRANSDA İŞTİRAK EDİB




***27-28 noyabrda Bakıda "Confidence Capital" şirkətinin təşkilatçılığı, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, BP, SOCAR və LAMOR şirkətlərinin dəstəyi ilə "Dənizdə və Quruda Neft Dağılmalarına Nəzarət" mövzusunda V praktiki konfrans keçirilib.***

Səh. 5

### XƏZƏR HÖVZƏSİNİN SU SƏVİYYƏSİNİN DƏYİŞMƏLƏRİ ŞİMAL YARIMKÜRƏSİNDƏ İQLİM DƏYİŞMƏLƏRİ İLƏ ƏLAQƏDARDIR



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi seminarında paleocoğrafiya şöbəsinin elmi işçisi Elşən Abdullayev "Mikropaleontoloji, mineroloji və geokimyəvi məlumatlar əsasında Xəzər hövzəsinin Plio-Pleystosen dövründə paleoşəraitin öyrənilməsi" mövzusunda məruzə edib.***

Səh. 6

### DƏNİZÇİ XANIMIN DAHA BİR İDMAN UĞURU



***Əl Oyunları Sarayında "KickBoxing Free Contact" idman növü üzrə "World Budo Martial Arts Cup 2017" dünya çempionatı keçirilib.***

Səh. 8

# *ELMAR MƏMMƏDYAROV:* "AZƏRBAYCAN XƏZƏRİN HÜQUQİ STATUSU İLƏ BAĞLI BÜTÜN MƏSƏLƏLƏRİN QARŞILIQLI FAYDALI TƏRƏFDAŞLIQ RUHUNDA HƏLLİNƏ ƏMİNDİR"

***Azərbaycan Xəzərin hüquqi statusu ilə bağlı bütün məsələlərin qarşılıqlı faydalı tərəfdaşlıq ruhunda həllinə əmindir.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov dekabrın 4-5-də Moskva şəhərində keçirilən Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müşavirəsindəki çıxışında deyib.

Nazir Elmar Məmmədyarov ötən dövr ərzində danışıqlar prosesinin iştirakçıları tərəfindən konvensiya layihəsi üzrə mühüm işlərin görüldüyünü, yüksək səviyyəli beştərəfli görüşlər zamanı qəbul edilmiş qərarların və əldə edilmiş razılaşmaların bütün xəzəryanı dövlətlərin mövqelərinin mühüm dərəcədə yaxınlaşdırılmasına, ümumilikdə danışıqlar prosesinə güclü təkan verdiyini və mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi, məhsuldar əməkdaşlıq və Xəzər regionunda sabitliyin qorunub saxlanması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Elmar Məmmədyarov bildirib ki, Qazaxıstanda keçirilməsi planlaşdırılan xəzəryanı ölkələrin dövlət başçılarının 5-ci Zirvə toplantısına qədər bütün açıq qalan məsələlər üzrə konsensusun əldə edilməsi üçün maksimum səylərin göstərilməsi zəruridir və konsensus hamılıqla tanınmış dünya təcrübəsi və beynəlxalq dəniz hüququnun normalarının nəzərə alınması ilə əldə edilə bilər.

Nazir qeyd edib ki, göstərilən səylər konvensiya layihəsi üzrə uzun illər aparılan işlərin nəticəsinin möhkəmləndirilməsinə xidmət etməli və Xəzər dənizində dövlətlərin qarşılıqlı fəaliyyəti və əməkdaşlığı üçün hərtərəfli hüquqi əsas yaratmalıdır. Bu əsas hüquqi sənəd Xəzər dənizində qarşılıqlı münasibətlərin gələcək arxitekturasının möhkəm təməlini təşkil edərək Xəzər regionunda sabitlik və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə şərait yaradacaq.

Elmar Məmmədyarov diqqətə çatdırıb ki, terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, silahların, narkotik maddələrin qanunsuz dövriyyəsi və insan alveri, həmçinin beynəlxalq və regional stabilliyə, təhlükəsizliyə çağırış və təhdidlərə qarşı mübarizə bütün xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsini tələb edir.

O, ticari-iqtisadi və mədəni əlaqələrin daha da genişləndirilməsi, habelə biznes və turizmin inkişafına zəruri şəraitin yaradılması üçün sülh, rifah, sabitlik və təhlükəsizlik məkanı kimi Xəzər dənizinin qorunması üzrə birgə səylərin bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd edib. Xəzər dənizinin Xəzər regionu ölkələrinin xalqlarının rifahına və dünya enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsi olduğunu bildirib.

Çıxışda nazir beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, enerji resurslarının hasilatı və beynəlxalq bazarlara nəql edilməsi üzrə investisiya mühitinin bundan sonra da yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların yaradılması, yüksək rentabelli və ekoloji təmiz



texnologiyaların cəlb edilməsi ilə bağlı məsələlərin sahilyanı dövlətlərin mühüm prioritetləri kimi qalmaqda davam etdiyini diqqətə çatdırıb.

Qeyd edib ki, Azərbaycan tərəfi Xəzər dənizinin hüquqi statusu ilə bağlı bütün məsələlərin, xüsusilə də Xəzərdə regional sabitlik, təhlükəsizlik, iqtisadi və elmi-tədqiqat fəaliyyəti ilə bağlı məsələlərin xəzəryanı dövlətlərin suveren hüquqlarına hörmət edilməsi və qarşılıqlı faydalı tərəfdaşlıq ruhunda, eləcə də tərəflər arasında etimadın möhkəmləndirilməsi yolu ilə həll edilməli olduğuna əmindir. O da bildirilib ki, etimad tədbirləri bütün xəzəryanı dövlətlər üçün bərabər təhlükəsizlik şərtlərinin təmin edilməsindən ibarət olmalıdır. Xəzər dənizində sabitliyin möhkəmləndirilməsi bütün tərəflərin maraqlarının nəzərə alınması ilə və bir-birinin təhlükəsizliyinə xələl yetirmədən, xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət edilməsinə əsaslanmalıdır.

Elmar Məmmədyarov Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tezliklə imzalanmasının xəzəryanı dövlətlərin müxtəlif sahələrdə, o cümlədən Xəzərin ekosisteminin mühafizə olunması məsələləri üzrə bundan sonrakı qarşılıqlı fəaliyyəti və əməkdaşlığına yönəlmiş səmərəli tədbirlərin yerinə yetirilməsinə xidmət edəcəyini diqqətə çatdırıb.

# DÖVLƏT TƏLTİFLƏRİNƏ LAYİQ GÖRÜLƏN DƏNİZÇİLƏRƏ MÜKAFATLAR TƏQDİM OLUNUB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə neft yataqlarından sənaye üsulu ilə iki milyardıncı ton neftin hasili münasibəti ilə neft və qaz sənayesinin inkişafında xidmətlərinə görə təltif etdiyi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin bir qrup əməkdaşına mükafatların təqdim olunması mərasimi keçirilib.***





Tədbirdə çıxış edən "AXDG" QSC-nin sədri Rauf Vəliyev dənizçilərin neft sektorunun inkişafındakı rolundan danışıb. Bildirib ki, onların əməyi hər zaman ölkə başçısı İlham Əliyev tərəfindən yüksək dəyərləndirilib. Sədr iki milyardıncı ton neftin hasil edilməsi münasibəti ilə imzalanan sərəncamlarda dənizçilərin unudulmadığının buna sübut olduğunu deyib. Göstərilən diqqətə görə kollektiv adından Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Sonra sədr 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunan Aslan Musayevə, "Əməkdar mühəndis" fəxri adına layiq görülən Fuad Qurbanova, "Tərəqqi" medalı ilə təltif olunan Gündüz Qədimov, Kamil Muxtarov, Adil Şahgəldiyev və Balaoğlan Dadaşeva yüksək mükafatları təqdim edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Xatırladaq ki, təltif olunanlardan Aslan Musayev Xəzər Dəniz Neft Donanmasının sabiq əməkdaşıdır. Ümumilikdə 65 il dənizçi kimi fəaliyyət göstərib. Onun 55 ili sırf neft sənayesi ilə bağlıdır.

Digər beş nəfər isə hazırda AXDG-nin müxtəlif strukturlarında fəaliyyətlərini davam etdirir.















## AXDG-DƏ ÜZƏN HEYƏTİN İŞƏ QƏBULU İLƏ BAĞLI YENİLİYİN TƏTBİQİNƏ BAŞLANILIB



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamenti (İRİD) tərəfindən üzən heyətin işə qəbulunda yeniliyin tətbiqinə başlanılıb. Bundan sonra namizədlərin nəzəri bilikləri işə qəbul prosesinin ilkin mərhələsində test imtahanı vasitəsi ilə yoxlanılacaq. Məqsəd prosesi təkmilləşdirmək və güclü kadr bazası yaratmaqdır.***

"AXDG" QSC-nin rəsmi saytında 26 sentyabr 2017-ci il tarixində elan olunan "matros", "motorçu" və "elektrik" vakansiyaları haqqında məlumatlar dənizçilik üzrə peşəkar karyerasını inkişaf etdirmək istəyənlər tərəfindən böyük maraqla qarşılanıb.

İmtahan tam şəffaf qaydada baş tutub. İlk gündə imtahanda ümumilikdə 53 namizəd biliklərini sınayıb. İRİD, Audit Departamentinin mütəxəssislərindən və kənar təşkilatların nümayəndələrindən ibarət heyət tərəfindən prosesə xüsusi nəzarət həyata keçirilib.

Namizədlərə 100 sualı cavablandırmaq üçün iki saat vaxt verilib. İddiaçılar imtahanın nəticələrini yerindəcə öyrəniblər. 80 və daha çox bal toplayanlar müsahibə mərhələsinə dəvət olunacaqlar.

Xatırladaq ki, AXDG-də işə qəbul olunmaq istəyən şəxslər şirkətin www.acsc.az korporativ veb-səhifəsinin "Karyera" bölməsinə daxil olmalı, bilik və bacarığına uyğun vakansiyanı seçərək vahid elektron müraciət formasını doldurmalıdırlar.

## "ŞUŞA" TANKERİ TƏMİR OLUNUB




***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Nəqliyyat Donanmasına məxsus "Şuşa" tankeri əsaslı təmir olunub.***

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan işlər tam uğurla başa çatdırılıb.

Tankerin sualtı və suüstü hissələri təmizlənərək rənglənib. Avar vallarının, pərlərin, baş göyərtədə buxar borusu, köməkçi qazanların klapanları, baş və köməkçi mühərriklərdə yağ və hava soyuducuları əsaslı təmir olunub.

Gəminin idarəetmə sistemləri sazlanıb. Gövdə hissəsində lazımi gövdə-qaynaq işləri aparılıb.

Tərsanə təmiri zamanı gəminin sualtı hissəsi, sükan və köməkçi qurğuları, kinqston qutuları, lövbər zəncirləri, nasoslar da təmir olunub.

Məlumat üçün bildiririk ki, "Şuşa" tankerinin uzunluğu 149.9, eni 17.3 metr, maksimal sürəti 12 uzeldir.





Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tanker donanması Xəzər hövzəsində aparıcı mövqeyə malikdir. Yükdaşımalarda xüsusi çəkisini saxlamaq üçün donanmanın yeni gəmilərlə zənginləşməsinə xüsusi fikir verilir. Yaxın gələcəkdə gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan yeni tankerlər hesabına donanmanın daha da gücləndirilməsi planlaşdırılır.

## *RAMİN QULUZADƏ:* "MƏQSƏDİMİZ TRANS-AVROPA VƏ TRANS-ASİYA DƏHLİZLƏRİNİ BİRLƏŞDİRƏCƏK YENİ NƏQLİYYAT İNFRASTRUKTURU YARATMAQDIR"






***Tbilisidə İkinci İpək Yolu beynəlxalq konfransı keçirilib. İki gün davam edən konfransda 50 ölkədən mindən çox nümayəndə iştirak edib.***

Tədbirdə Azərbaycanı nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və digər rəsmi şəxslər təmsil ediblər.

Tədbiri Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili açaraq ölkəsinin tarixi İpək Yoluna böyük önəm verdiyini bildirib. Baş nazir Gürcüstanın iqtisadi inkişafı, beynəlxalq layihələrdə iştirakı, investisiya imkanları barədə ətraflı məlumat verib.

Konfransda ilk dəfə olaraq Ukrayna və Moldovanın baş nazirləri və Sloveniya baş nazirinin müavini iştirak ediblər.

Konfransda böyük İpək Yolunun inkişafı, regional təhlükəsizlik, iqtisadi, enerji, infrastruktur layihələri, logistika, regional əməkdaşlıq məsələləri müzakirə olunub. Çıxışlarda Cənubi Qafqaz ölkələrinin, xüsusən Azərbaycanın, Türkiyənin və Gürcüstanın Avropanın enerji təhlükəsizliyindəki rolu xüsusi qeyd olunub. Eyni zamanda, hər üç ölkənin iştirakı ilə reallaşdırılan nəqliyyat layihələri, yaradılan nəqliyyat infrastrukturları, logistik mərkəzlərin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, iki gün davam edən müzakirələr zamanı Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizlərinin inkişafı, yeni mərkəzlərin yaradılması və s. təkliflər olduqca əhəmiyyətlidir. İştirakçı ölkələr bu təkliflərin reallaşdırılması istiqamətində səmərəli iş aparmalıdırlar.




Müzakirələr zamanı vurğulanıb ki, yeni layihələr həm də geniş investisiya imkanları açır. Beynəlxalq maliyyə qurumları, eləcə də ayrı-ayrı dövlətlər bundan səmərəli istifadə edəcəklər. Bu da xalqların və ölkələrin inkişafında mühüm rol oynayacaq.

Tədbirdə, həmçinin həyata keçirilən iri regional neft və qaz layihələri, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi diqqət mərkəzində olub.

Nəqliyyat infrastrukturunun inkişafı məsələlərinə həsr olunmuş panel iclasında Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə çıxış edib.

Nazir deyib ki, Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dayanıqlı inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan bu kontekstdə nəqliyyat strukturunun inkişafına xüsusi önəm verir. Yeni infrastrukturların, logistik mərkəzlərin yaradılması, xidmətin keyfiyyətinin yüksəldilməsi diqqət mərkəzindədir.

Ramin Quluzadə bildirib ki, Azərbaycan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə böyük önəm verir və bu layihələrin inkişafında fəal iştirak edir. 2004-cü ildə Azərbaycanda 11 min kilometr uzunluğunda avtomobil yolu salınıb və bunun 1300 kilometri məhz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərini əhatə edib.

Nazir hazırda tikintisi davam edən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı barədə də ətraflı məlumat verib. Bildirib ki, bu liman təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Limanın tikintisinin birinci fazası başa çatdıqdan sonra mal dövriyyəsi 15 milyon ton, konteyner daşınması isə 100 min təşkil edəcək. Limanın tikintisi tam başa çatdıqdan sonra isə mal dövriyyəsinin 25 milyon tona, konteyner daşınmasının isə 1 milyona çatdırılacağı gözlənilir.

Azərbaycanın dəmir yolunun da modernləşdirildiyini deyən nazir Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışını xüsusi qeyd edib. Bildirib ki, bu yol Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri nəticəsində tikilib. Bu layihə bizim ölkələrimiz arasında əməkdaşlığı genişləndirməklə yanaşı, ticarət dövriyyəsinin və investisiya yatırımlarının artırılması üçün də yeni imkanlar yaradacaq.

"Azərbaycanın əsas məqsədi Trans-Avropa və Trans-Asiya dəhlizlərini birləşdirəcək yeni nəqliyyat infrastrukturu yaratmaqdır", - deyə R.Quluzadə çıxışında vurğulayıb.

Nazir İpək Yolu Forumunun işini yüksək qiymətləndirib və deyib ki, bu Forum ölkələrimiz arasındakı əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcək.

## 40 İLİN MƏZUNLARI DƏNİZ AKADEMİYASINDA OLUBLAR

***Q.Məmmədov adına Bakı Dəniz Yolları Məktəbində 1973-1977-ci illərdə təhsil almış 3-cü rotanın 534-cü qrupunun müdavimləri məktəbi bitirmələrinin 40 illiyi münasibətilə Azərbaycan Dövlət Dəniz Akademiyasında təşkil olunmuş görüşdə iştirak ediblər.***

Məzunlar "Gəmi energetik qurğuları" kafedrasının tədris elmi laboratoriyasında dizel generatorları, dizel mühərriklərinin tədqiqat sınaq qurğusu, yanacaq və yağ separatoları, hava kompressorları, dizel mühərriklərinin işə salınma sistemləri və digər köməkçi mexanizmlərlə, həmiçinin MR 3D trenajoru ilə tanış olublar.

Sonra "Dəniz naviqasiyası" fakültəsinə mənsub radarla müşahidə və təsvir, elektron xəritəçəkmə, dəniz astronomiyası və naviqasiya çəkilişi, multimedia öyrədici modul trenajorları, ixtisaslaşmış auditoriyalarla tanış olaraq çox məmnun qaldıqlarını bildiriblər.

İnformasiya resurs mərkəzinin zəngin kitabxana fondu və ADDA-nın tarixi muzeyi ilə yaxından tanış olan qonaqlar xatirə kitabına ürək sözləri və xoş təəssüratlarını yazıblar.

Akademiyada təhsil aldıqları dövrü indiki ilə müqayisə edən məzunlar əldə edilən uğurların sevindirici olduğunu bildiriblər.

Görüşü təşkil etdiyi üçün qonaqlar akademiya rəhbərliyi və kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.









## İLİN ƏVVƏLİNDƏN BAKININ ƏHALİSİ 12,6 MİN NƏFƏR ARTIB



***Bu ilin əvvəlindən Bakı şəhərinin əhalisinin sayı 12,6 min nəfər və ya 0,5 faiz artaraq oktyabrın 1-nə 2258,4 min nəfərə çatıb.***

Bakı Şəhər Statistika İdarəsindən bildiriblər ki, əhalinin 49,6 faizini kişilər, 50,4 faizini qadınlar təşkil edir. Bir kvadratkilometrə düşən əhalinin sıxlığı 1055 nəfər olub. Yanvar-sentyabr aylarında Bakı şəhəri üzrə əhalinin ümumi artımı əsasən təbii artım hesabına baş verib.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-sentyabr ayları ərzində Bakı şəhərində 22840 doğulmuş körpə qeydə alınıb və bu göstərici əhalinin hər min nəfərinə hesabı ilə 13,6 təşkil edib. Doğulanların 268-i əkiz, 4-ü isə üçəmdir. Doğulan körpələrin 52,6 faizi oğlan, 47,4 faizi isə qız uşaqlarından ibarət olub.

Cari ilin yanvar-sentyabr aylarında Bakı şəhərində 9746 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi ötən illə müqayisədə dəyişməmiş 5,8 olaraq eyni qalıb.

Doqquz ayda qeydiyyat şöbələri tərəfindən 11968 nikah və 3698 boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 7,1 boşanmaların sayı isə 2,2 olub.

## XƏZƏR DƏNİZİNƏ YENİ HƏRBİ GƏMİ BURAXILIB

***Dekabrın 5-də İran Hərbi Dəniz Qüvvələrinin Xəzər dənizindəki komandanlığına "Sipər" adlı yeni hərbi gəmi verilib.***

Bu münasibətlə Ənzəli şəhərində keçirilən mərasimdə çıxış edən İranın müdafiə naziri general Əmir Hatəmi Xəzər dənizini sülh və dostluq dənizi adlandırıb. Yeni raket gəmisinin bütünlüklə İran istehsalı olduğunu bildirən nazir deyib ki, İranın məqsədi dənizdə təhlükəsizliyi qoruyub saxlamaqdan ibarətdir.

Nazir raket gəmisinin yeni texnologiyalarla təchiz olunduğunu da diqqətə çatdırıb.






## BÖYÜK İPƏK YOLUNA DAİR YOL XƏRİTƏSİ İMZALANIB

***Ukrayna və Çin Avropa ilə Asiyanı birləşdirən böyük İpək Yoluna dair yol xəritəsi imzalayıb.***

Bu barədə Ukraynanın İqtisadi İnkişaf və Ticarət Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd olunub ki, bu yol xəritəsi böyük İpək Yolu layihəsinin iştirakçıları üçün mühüm əhəmiyyətə malikdir. Bildirilib ki, bu yol xəritəsi üzrə böyük İpək Yolu ölkələri tranzit daşımalarını həyata keçirəcəklər.

Qeyd edək ki, böyük İpək Yolu layihəsinə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukrayna, Çin və Avropa ölkələri daxildir.

**T Ə B R İ K E D İ R İ K !**

# “HƏYATIMI DƏNİZSİZ TƏSƏVVÜR ETMİRƏM”

***Gündüz Qədimov 1954-cü ildə Biləsuvar rayonunda doğulub. 1970-ci ildə Politexnik Texnikumuna daxil olub. Əmək fəaliyyətinə Ağdam kənd təsərrüfatı texnika birliyinin təmir emalatxanasında çilingər kimi başlayıb. Burada cəmi bir il işləyib. Dəniz eşqi onu 1977-ci ildə “Xəzərdənizneftdonanma” idarəsinə gətirib. Sular qoynunda ilk səfərlərinə motorçu kimi çıxan Gündüz Qədimov xidmət pillələri ilə uğurla addımlamağı bacarıb.***



Gündüz Qədimov hazırda “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Xəzər Dəniz Neft Donanmasının “General Şıxlinski” gəmisində başmexanik işləyir. 2 milyardıncı ton neftin hasili münasibəti ilə təltif edilən dənizçilər arasında o da var.

**- Gündüz müəllim, Prezident İlham Əliyevin Sərəncamı ilə 3-cü dərəcəli “Əmək ordeni”nə layiq görülmüsünüz. Təbrik edirik.**

- Əməyimə verilən yüksək qiymətə görə həm ölkə başçımız İlham Əliyevə, həm də “AXDG” QSC-nin sədri Rauf Vəliyevə minnətdarlığımı bildirirəm. Çalışacağam ki, etimadı doğruldum.

**- 41 il əmək stajınızın 40 ili dənizlə bağlıdır.**

- İllər elə sürətlə keçir ki… Elə bil dünən idi “Xəzərdənizneftdonanma” idarəsində motorçu şagirdi kimi işə başladığım. Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbini bitirəndən sonra özümə inamım artdı.

**- Peşənizin çətinliyi barədə nə deyə bilərsiniz?**

- Dənizin hər üzünü gördüm, bütün çətinlikləri yaşadım. Amma bir o qədər də işimdən zövq aldım. İnsanlarla dostluq etməyin yollarını öyrəndim. Çətin günlərdə həmrəyliyin nə olduğunu anladım. Dənizdə başqa cür mümkün də deyil. İndi işə elə öyrəşmişəm ki, həyatımı dənizsiz təsəvvür etmirəm.

**- Hansı gəmilərdə və layihələrdə çalışmısınız?**

- Demək olar, Xəzər Dəniz Neft Donanmasının əksər gəmilərində işləmişəm. “İsrafil Hüseynov”, “Süleyman Vəzirov”, “Aura”, “General Şıxlinski” və s. Çalışdığım hər bir gəmi mütəxəssis kimi formalaşmağımda böyük rol oynayıb. Layihələrə gəlincə, qeyd edim ki, XDND əsasən Dövlət Neft Şirkətinin sifarişlərini yerinə yetirir. Həmin gəmilər neft yataqlarına blokların yerləşdirilməsi, svayların vurulması, buruqların qoyulması, borudüzmə işlərində istismar olunur. Olduqca vacib gəmilərdir. Bakı-Tbilisi-Ceyhan, Günəşli və digər layihələrdə sözügedən gəmilərin xüsusi rolu və çəkisi var.

**- Dənizdə boş vaxtlarınızda nə edirsiniz?**

-İdmanla məşğul oluram. Təmiz havada idmanın faydası daha çoxdur. Bundan başqa, kitab oxumağı, filmə baxmağı, musiqiyə qulaq asmağı xoşlayıram. Dənizdə bunların ayrı ləzzəti var…

**- İşə yeni başlayanlara nə tövsiyə edərdiniz?**

- Peşə həyatında ilk illər çox önəmli mərhələdir. Bu dövrdə öyrənməyə və özlərini inkişaf etdirməyə daha çox çalışmalıdırlar. Özlərinə qısa, orta və uzun müddətli hədəflər müəyyənləşdirməli və məqsədə doğru inamla addımlamalıdırlar.

# BAKI LİMANINDA İLK İSTEHSAL MÜƏSSİSƏSİNİN FƏALİYYƏTƏ BAŞLAMASI ÜÇÜN LAZIMİ İNFRASTRUKTUR YARADILIB

***2018-ci ildə ölkəmizdə azad iqtisadi zonaların (AİZ) istifadəyə verilməsi nəzərdə tutulur. Bu məqsədlə artıq Bakı Beynəlxalq Dəniz Ticarət Limanında ilk istehsal müəssisəsinin fəaliyyətə başlaması üçün lazımi infrastruktur yaradılıb.***




Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən bildirilib ki, bu cür ərazilərdə yerli və xarici sahibkarlar üçün əlverişli iqtisadi şəraitə malik olan və digər ərazilərə münasibətdə xüsusi hüquqi rejimli məhdud sahələrdir. Ərazidə sadələşdirilmiş gömrük və vergi prosedurları həyata keçirilir, istehsal edilən mallar milli gömrük xaricində olan obyektlər kimi qəbul edilir və bu səbəbdən də adi gömrük nəzarətinə və vergitutmaya cəlb olunmur.

Qeyd olunub ki, AİZ ərazisində tətbiq olunan vergi güzəştləri də investisiyaların cəlb edilməsi baxımından əlverişli hesab olunur. Bakı Dəniz Ticarət Limanı hazırda Azərbaycanın tranzit imkanlarının dünyaya təqdim olunması baxımından mühüm strateji məkandır və bu sahədə səmərəli vergi-fiskal siyasətin həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan malların 3 il müddətinə yol vergisindən azad olunmasını nəzərdə tutur ki, bu da AİZ-dəki limandan daşımaların artmasını stimullaşdıracaq. Bu siyasət ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin aşağı salınmasında və onların ixrac imkanlarının yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Dəniz limanının birinci fazası üzrə illik yükaşırma qabiliyyətinin 15 milyon tona çatacağı gözlənilir.

# “GƏMİ TƏMİRİNDƏ SƏHV ETMƏK OLMAZ”

***Müsahibimiz Fuad Qurbanov 42 ildir gəmiçilik sahəsindədir. Sahildə çalışsa da, işi heç də asan deyil. Çünki, gəmi təmiri kimi asan olmayan bir sahəyə nəzarət edir. Təmir zamanı kiçik bir yanlışlığın belə, dənizdə böyük faciəyə səbəb ola biləcəyini nəzərə alsaq, Fuad Qurbanovun məsuliyyətini anlamaq çətin olmaz.***



“Bibiheybət” Gəmi Təmiri Zavodunun baş mühəndisi üçün vicdan çox önəmlidir. Deyir ki, işini vicdanla gördünsə, nəticə də yaxşı olacaq.

Hər halda bu günlərdə iki milyardıncı ton neftin hasil edilməsi münasibəti ilə Prezident İlham Əliyevin sərəncamı ilə ona verilən “Əməkdar mühəndis” fəxri adı da həm də işinə vicdanla yanaşmasının nəticəsidir.

**- Fuad müəllim, əməyiniz çox yüksək qiymətləndirilib. Təbrik edirik.**

- Çox sağ olun! Bundan qabaq da mükafatlarım olub. “Tərəqqi” medalına, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Fəxri Fərmanı”na layiq görülmüşəm. Həmişə də etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməmişəm.

**- Bir az keçmişə qayıdaq. Necə oldu ki, taleyinizi gəmiçiliklə bağladınız?**

- Məktəbi bitirdikdən sonra sənədlərimi keçmiş Azərbaycan Neft Kimya İnstitutuna verdim. SSRİ-nin başqa şəhərlərində oxumaq üçün 32 ixtisas seçimi imkanım var idi. Mühəndis-mexanik ixtisasını seçdim. Və beş il Leninqradda Su Nəqliyyatı İnstitutunda oxudum. 1975-ci ildə Bakıya qayıtdım. “Bibiheybət” Gəmi Təmiri Zavodunda işə başladım. Əvvəlcə mexaniki sexdə usta, sonra İstehsalat şöbəsində iş icraçısı oldum. 1983-1985-ci illərdə Finlandiyada Azərbaycan üçün tikilən gəmilərə nəzarət edirdim. Qayıtdıqdan sonra İstehsalat şöbəsinin mühəndis texnoloqu, Texniki nəzarət şöbəsinin rəisi işlədim. 1989-cu ildən zavodun keyfiyyət üzrə direktor müavini idim. 1994-cü ildən XDND-də Texniki şöbədə çalışdım. 2007-ci ildən isə “Bibiheybət” Gəmi Təmiri Zavodunun baş mühəndisiyəm.

**- Fuad müəllim, işinizin özəlliyi barədə nə deyə bilərsiniz?**

-Biz gəmi təmiri ilə məşğuluq. Belə bir söz var, deyirlər ki, istehsalatda ən çətin sahə gəmi təmiridir. Hətta gəmiqayırmadan belə mürəkkəbdir. Çünki, hər gəminin öz xüsusiyyəti var. Təmirçi bütün gəmini tanımalıdır. Burda səhv etmək olmaz. Təmir zamanı maksimum diqqətli olmaq lazımdır. Və ən əsası bir şeyi demək istəyirəm. Bizim iş komanda işidir. Kollektivdə bir nəfərin etdiyi yalnışlığın əziyyətini hamı çəkir. Elə qazandığımız uğur da hamımızın olur. “Əməkdar mühəndis” fəxri adını da bütün kollektivimizin əməyinə verilən yüksək qiymət kimi dəyərləndiririk.

**- Maraqlıdır, ailənizdə sizdən başqa dənizçi varmı?**

- Deyilənə görə əmim Sadıq Heydər oğlu Qurbanov gəmi sürücüsü olub. Böyük Vətən müharibəsindən qayıtmayıb.

**- Sonda həmkarlarınıza deyəcək sözünüz varsa, buyurun.**

- İşə vicdanla yanaşmaq lazımdır. Xəzər Dəniz Gəmiçiliyində vicdanla çalışan hər kəsin əməyi yüksək qiymətləndirilir.

***Rövşən Abdurəhmanov***

# İRANIN ÇABAHAR ŞƏHƏRİNDƏKİ ŞƏHİD BEHİŞTİ LİMANININ AÇILIŞ MƏRASİMİ OLUB

***Dekabrın 3-də İranın Hind Okeanı sahilindəki Çabahar şəhərindəki Şəhid Behişti limanının açılış mərasimi olub.***




Mərasimdə iştirak edən İran Prezidenti Həsən Ruhani çıxış edərək bildirib ki, limanın istifadəyə verilməsi beynəlxalq əhəmiyyət daşıyır. Bu liman İranın Sistan və Bəllucistan əyalətlərinin inkişafı ilə yanaşı, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin də formalaşmasında mühüm rol oynayacaq.

İran Prezidentinin sözlərinə görə, bu liman təkcə İranın yox, Cənub-Şərqi Asiya və Avropa ölkələrinin də iqtisadi inkişafında vacib amilə çevriləcək.

Qeyd etmək lazımdır ki, Hindistan, Çin və Cənub-Şərqi Asiyada yerləşən digər dövlətlər məhz bu liman vasitəsi ilə Avropa ölkələri ilə ticarət əlaqələrini möhkəmləndirəcək və idxal-ixrac əməliyyatlarını həyata keçirəcəklər. Cənub-Şərqi Asiya ölkələrindən Avropaya daşınan yüklər Şəhid Behişti limanında qatarlara yüklənərək Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xətti ilə Rusiyaya oradan isə Avropaya daşınacaq.

Mərasimə İran rəsmiləri ilə yanaşı, xarici dövlətlərin hökumət nümayəndələri də qatılıblar. Tədbirdə Bakı Beynəlxalq Ticarət limanının rəhbəri Taleh Ziyadov da iştirak edib.

***Rabil Kətanov***

# BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU BÜTÜN AVRASİYA ÜÇÜN CƏLBEDİCİ VƏ PERSPEKTİVLİDİR

***Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiya məkanındakı bütün polad magistralların birləşdiricisi funksiyasına malikdir. Bu şəbəkəyə qoşulmaq, öz siyasətini sülh və inkişaf prinsipləri ilə quran bütün ölkələrin maraqlarını tam şəkildə təmin edir.***






Oktyabrın 30-da açılışı Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təşkil olunan Bakı-Tbilisi-Qars dəmir yolunun dünya daşımaçılıq sisteminin inkişaf perspektivləri üçün yeni bir mənzərə yaradıb. Hazırda iqtisadiyyat üzrə ekspertləri düşündürən çox mühüm məsələ budur: Avrasiya məkanındakı dəmir yollarını birləşdirmək üçün daha hansı layihələr perspektivli sayıla bilər. Əvvəlcədən qeyd etmək istərdik ki, Bakı-Tbilisi-Qars dəmir yolunun alternativi yoxdur və olmayacaq. Bu mühakiməni əsaslandıran aşağıdakı arqumentlər mövcuddur:

- Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Qafqaz bölgəsini və Mərkəzi Asiya məkanını Cənubi Avropa və Cənub-Şərqi Asiya ölkələri ilə birləşdirən ən səmərəli və o cümlədən artıq mövcud olan xətdir;
- Bakı-Tbilisi-Qars dəmir yolu NATO ölkəsi olan Türkiyədən keçməklə Cənubi Avropaya birbaşa birləşir;
- Yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun bütün Avropa və Cənub-Şərqi Asiya ilə birləşməsində problemlər görünmür;
- Bu polad magistral Avrasiyada bütün ölkələrin idxal və ixrac maraqlarını tamamlayır və s.

Əlbəttə ki, hər bir beynəlxalq iqtisadi layihənin dünya üçün əhəmiyyətinin mühüm göstəricilərindən biri də dünya KİV-lərinin ona göstərdiyi diqqətdir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycan, Türkiyə və Gürcüstanın birbaşa maraqlarını əks etdirdiyi üçün bu üç ölkə mediasında yayılan informasiyaları nəzərə almadan deyə bilərik ki, haqqında bəhs etdiyimiz polad magistralın açılışı və onun üzərindən ilk konteyner yük qatarının mənzil başına uğurla çatması dünya KİV-ləri tərəfindən geniş şəkildə şərh olunur. Məsələn: İordaniya Krallığının “Əmman əl-Urduniyyə” saytında və “Əş-Şahid” qəzetində, İspaniyanın “La Vanguardia” nəşrində, Moldovanın aparıcı xəbər portalı və böyük oxucu auditoriyasına malik Tribuna.md saytında, Avropa İttifaqı məsələlərini işıqlandıran "EurActiv" xəbər portalında, İtaliyanın “L’Opinione” qəzetində və “Notizie Geopolitiche” analitik portalında, Monteneqronun “Volimpodgoricu.me”, “Dijaspora.news”, Özbəkistanın “kun.uz” və “podrobno.uz” xəbər portallarında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinə dair məlumatlarda və məqalələrdə bu yolun Avrasiya məkanında daşınmalar prosesinə təsiri, yeni istifadəyə verilən polad magistralın iqtisadi inkişaf üçün vədləri, eləcə də ona qoşulmaq üçün perspektivdə olan digər dəmir yolu layihələri barədə maraqlı informasiyalar var. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolunun oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilmiş təntənəli açılış mərasimində çəkilmiş foto Rusiyanın TASS agentliyinin “Həftənin ən yaxşı 13 fotosu” layihəsində təqdim olunub.

Qeyd etmək lazımdır ki, Qazaxıstanın Kokşetau stansiyasından Türkiyənin Mersin şəhərinə yola düşən birinci konteyner qatarı “Azərbaycan Dəmir Yolları” QSC-nin vaqonlarına yüklənmiş “NK “KTZ” SC-yə məxsus otuz 20 futluq konteynerdən ibarət olub. Qablaşdırılmış taxıl daşıyan qatar noyabrın 4-də 10 gün ərzində 5435 kilometr məsafə qət edərək mənzil başına çatıb.

Bakı-Tbilisi-Qars dəmir yolunun perspektivləri barədə fikir və mülahizələrimizi bölüşərkən təbii ki, ilk olaraq, hazırda tikintisi uğurla aparılan Şimal-Cənub nəqliyyat dəhlizində dəmir yolu şəbəkəsinin qurulmasına toxunmamaq mümkün deyil. Çünki məhz Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti istifadəyə verilməsi ilə Azərbaycan Respublikasının ərazisi Avrasiya məkanının polad magistralında dörd yol ayrıcı funksiyası qazanacaq. Ən son məlumata görə, Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin 2017-ci il dekabrın sonunda istifadəyə verilməsi planlaşdırılıb. Mütəxəssislər hesab edirlər ki, bu yol xətti istifadəyə veriləndən sonra yüklərin daşınması üçün tətbiq edilən tariflər azaldıla bilər. Bu isə tranzit daşımaları həyata keçirən, eləcə də istehsalçı və tədarükçü şirkətlər üçün ən yaxşı cəlbedicilik üsuludur. Məhz bu yolla gələn ilin sonuna kimi İran Azərbaycan üzərindən Belarusa və Rusiyaya 2 milyon tondan çox yükün daşınmasını planlaşdırır. Bundan başqa, İran tərəfinin rəsmi mövqeyinə görə, Qəzvin-Rəşt dəmir yolunun davamı olan Rəşt-Astara dəmir yolu 3 il ərzində inşa edilərək istismara veriləcək. Qeyd olunub ki, Belarusun, Baltikyanı dövlətlərinin və Finlandiyanın “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinə maraq göstərmələri həyata keçirilən işlərin sürətlənməsinə səbəb olacaq. Bundan başqa, İranın dövlət büdcəsindən Zahedan-Səbəhar dəmir yolunun çəkilişinə 125 milyon dollar vəsait ayrılıb. 630 kilometrlik yolun çəkilişinə 2014-cü ildə başlanıb. Gələn ilin mart ayında Zahedan-Səbəhar dəmir yolunun 100 kilometrlik hissəsi istismara veriləcək.

Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin fəaliyyətə başlaması və Azərbaycan, Gürcüstan, Türkiyə vasitəsilə Avropaya yeni tranzit dəhlizinin açılmasına Əfqanıstan hökuməti də çox böyük maraq göstərir.

Qeyd edək ki, 2017-ci ilin yanvar-sentyabr aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 38911,8 min ton, yük dövriyyəsi isə 8343,7 milyon ton-kilometr olub. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, yüklərin 24013 min tonu və ya 61,7 faizi avtomobil nəqliyyatı, 9589,8 min tonu və ya 24,7 faizi dəmir yolu nəqliyyatı, 5309 min tonu və ya 13,6 faizi dəniz nəqliyyatı ilə daşınıb. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə dəhliz vasitəsilə daşınmış yüklərin həcmində 4,7 faiz artım müşahidə edilib. Dəhliz vasitəsilə daşınmış yüklərin 19 faizini və ya 7386,3 min tonunu tranzit yüklər təşkil edib. Əlavə edə bilərik ki, Azərbaycanın tranzit potensialını artıracaq digər marşrutlarla yanaşı “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi mühüm əhəmiyyət kəsb edən layihələrdən biridir. Dəhliz Hindistan–İran–Azərbaycan–Rusiya–Skandinaviya və Şimalı Avropa marşrutu üzrə fəaliyyət göstərir. Artıq sınaq məqsədilə “Şimal-Cənub” Nəqliyyat Dəhlizi ilə Rusiyadan İrana taxta daşınıb. Nəzərə almaq lazımdır ki, Bakı-Tbilisi-Qars dəmir yolu və “Şimal-Cənub” Nəqliyyat Dəhlizi sayəsində keçmiş SSRİ məkanından Azərbaycana daxil olan qatarların qısa zaman kəsiyində İran və Anadolu məkanına çatması təmin olunub.

Son vaxtlar belə bir informasiya yayılmaqdadır ki, guya Qazaxıstan və Rusiya tərəfləri Çindən dəmir yolu çəkməklə Avropaya yeni çıxış əldə etməklə Bakı-Tbilisi-Qars dəmir yoluna alternativ polad magistral yaradacaqlar. Əvvəldə qeyd etdiyimiz kimi nə hazırda, nə də gələcəkdə heç bir polad magistral Bakı-Tbilisi-Qars dəmir yoluna alternativ ola bilməz. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu məhz Qazaxıstan və Rusiya üçün də Qafqaza, Anadoluya və Cənubi Avropaya birbaşa çıxış keçididir. Nəzərə almaq lazımdır ki, Rusiya Federasiyasının Cənubi Avropa ölkələri ilə birbaşa quru sərhədi yoxdur. Rusiya Cənubi Avropaya qurudan Baltikyanı ölkələr, Ukrayna və yaxud Belarus vasitəsilə çıxa bilir. Bundan başqa, daşımalar üzrə mütəxəssislər əsaslandırırlar ki, dəmir yolu nəqliyyatı şirkətləri üçün ən sərfəli variant qatarların bütün istiqamətdə boş hərəkət etməməsidir. Bakı-Tbilisi-Qars dəmir yoluna birləşən polad magistralların keçdiyi ölkələrin iqtisadi resursları, idxal etdikləri məhsullar fərqlidir. Odur ki, bu yolla vaqonların boş hərəkəti riski yox dərəcəsindədir. Bu hal Qazaxıstan və Rusiyaya da imkan verir ki, həm özlərinin idxal və ixracına, həm də tranzit daşımalarda fəal iştirak etsinlər. İkincisi, zəngin təbii ehtiyatlara malik Qazaxıstan və Rusiya tarixdə ilk dəfədir ki, məhz Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Yaxın Şərqə və Afrikaya dəmir yolu ilə çıxış perspektivi əldə ediblər. Təbii ki, bu Türkiyənin yaxın gələcəkdə öz dəmir yolu şəbəkəsini sərhədlərə doğru şaxələndirmək siyasətindən və Yaxın Şərqdəki sülh prosesindən asılıdır. Türkiyə rəsmilərinin bu barədə nikbin açıqlamaları isə deməyə əsas verir ki, belə bir prosesin baş verməsinə ümid etmək mümkündür.

***Sabir Şahtaxtı***

## GƏMİÇİLİKDƏ APARILAN AUDİT UĞURLA YEKUNLAŞIB

***Gəmiçilikdə "Amerika Gəmiçilik Bürosu" tərəfindən TKİS-nin beynəlxalq idarəetmə standartlarına uyğunluğu üzrə keçirilmiş növbəti xarici audit uğurla başa çatıb.***

Noyabrın 11-dən başlayan audit beş gün davam edib. Audit zamanı məlum olub ki, Gəmiçilikdə tətbiq edilib işləyən "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi"nin (TKİS) hazırkı səviyyəsi İSO 9001 (Keyfiyyət Menecmenti), İSO 14001 (Ekoloji Menecment), İSO 50001 (Enerji Səmərəliyi Menecmenti) və OHSAS 18001 (Peşə Təhlükəsizliyi və Əməyin Mühafizəsi Menecmenti) üzrə beynəlxalq idarəetmə standartlarının uyğunluğuna dair 2015-ci ildə alınmış sertifikata müvafiqdir. Nəticələrə əsasən "ABS" bürosunun Gəmiçiliyə təqdim etdiyi sözügedən beynəlxalq sertifikatın uyğunluğu növbəti bir il üçün məqbul sayılıb.

Xarici audit ilk gün bilavasitə auditorun təsadüfi seçdiyi gəmidə, növbəti günlərdə isə Cəmiyyət aparatının aidiyyəti departamentlərində həyata keçirilib. Audit zamanı Cəmiyyətin aparatında və gəmilərdə işin təşkili və sənədləşmənin TKİS-ə və beynəlxalq idarəetmə standartlarının tələblərinə uyğunluq səviyyəsinə baxış keçirilib, müşahidələr müvafiq xidmətlərlə araşdırılaraq təhlil edilib. Yekunda auditin müsbət nəticələnməsi barədə xarici auditor tərəfindən AXDG rəhbərliyi məlumatlandırılıb.

## "FÖVQƏLADƏ HALLARLA MÜBARİZƏNİN AKTUAL PROBLEMLƏRİ"

***Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ölkəmizdəki ali təhsil məktəblərinin kursant və tələbələrinin iştirakı ilə "Fövqəladə hallarla mübarizənin aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***



Konfransda Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi general-mayor Pənah Süleymanov qeyd edib ki, son illər Akademiyada elmi-texniki nailiyyətlərin ümumiləşdirilməsi və yayılması, elm-tədqiqat işlərinin aparılması və nəticələrinin istehsalatda tətbiqi, innovasiya və ixtiraçılıq fəaliyyəti, dissertasiyaların, monoqrafiyaların və dərsliklərin hazırlanması, elmi konfransların keçirilməsi, elmi məqalələrin çapı, təcrübə zamanı qazanılmış elmi bilik, təcrübə və vərdişlərin artırılmasına xüsusi diqqət göstərilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində uğurlar əldə edilməsində təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək qiymətləndirmişdir. Gənc nəslin elm və təhsilə cəlb olunması üçün dövlətimiz tərəfindən mühüm addımlar atılır" deyən general-mayor Pənah Süleymanov çıxışında ölkəmizdə təhsilin və elmin inkişafına hər cür şərait yaradıldığını, bu sahəyə dövlət başçısı İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərildiyini vurğulayıb.

Plenar iclasdan sonra konfrans öz işini bölmə iclaslarında davam etdirib.

Konfransda Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi-tədqiqat şöbəsinin müdiri dosent S. Əhmədova və Elektroavtomatika kafedrasının müdiri dosent E. Sultanovun rəhbərliyi ilə elektrik mühəndisliyi ixtisası üzrə təhsil alan magistrantları Turqay Salamzadə və Ruslan Əlicanov məruzə ilə çıxış ediblər.

Tədbirin sonunda bir neçə kursant və tələbə Fövqəladə Hallar Nazirliyinin Akademiyasının fəxri fərmanı ilə təltif olunub. Onların sırasında hər iki ADDA magistrantı da yer alıb.

## DƏNİZİN GƏMİLƏRDƏN ÇİRKLƏNDİRİLMƏSİNİN QARŞISINI NECƏ ALMAQ OLAR?



***Lissabonda Qara dəniz və Xəzər dənizi layihəsi benefisiarları üçün "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" təlim keçirilib.***

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının Dəniz nəqliyyatı siyasəti şöbəsinin müdiri Nigar Bağırova və Dəniz üzgüçülüyü şöbəsinin Dəniz üzgüçülüyünün təşkili və limanlarla iş sektorunun aparıcı məsləhətçisi Emil Aydınovun iştirak etdiyi təlimə Gürcüstan, Ukrayna, Moldova, Türkmənistan, Qazaxıstan, Türkiyə və İran İslam Respublikalarının nümayəndələri də qatılıb.

Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin fəaliyyəti və "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyanın VI Əlavəsi haqqında təlim iştirakçılarına ümumi məlumat verilərək, Konvensiyanın VI Əlavəsinin tətbiqi, nəzarət və uyğunluq haqqında təqdimat keçirilib. Təqdimat zamanı bu sahədə qaydaların hazırlanması və cərimələrin tətbiqi üçün hüquqi bazanın formalaşdırılmasının, Konvensiyanın VI Əlavəsinin tətbiqi zamanı aidiyyəti dövlət qurumlarının səlahiyyətlərinin müəyyənləşdirilməsinin, gəmi sənədlərinin uyğunluğunun yoxlanılmasının, gəmidən nümunələrin götürülməsinin və yoxlanılmasının, Beynəlxalq Dəniz Təşkilatına müvafiq məlumatların ötürülməsinin vacibliyi vurğulanıb.

Azərbaycan tərəfinin təqdimatı zamanı Konvensiyanın və onun VI Əlavəsinin ölkəmiz tərəfindən ratifikasiya edilməsi, Konvensiyanın tətbiqi ilə bağlı cavabdeh qurumların səlahiyyətləri, bu sahədə verilən sertifikatlar, Dövlət Dəniz Administrasiyası tərəfindən təsdiq olunan sənədlər və tətbiqi ilə bağlı qəbul olunan qaydalar, eləcə də liman qəbuledici qurğuları, Dövlət Bayraq və Liman Nəzarəti müfəttişlərinin bu sahədə fəaliyyəti haqqında məlumat təlim iştirakçılarının diqqətinə çatdırılıb.

Təlimdə həmçinin Konvensiyanın VI Əlavəsi – kükürd birləşmələri (SOx) haqqında təqdimat keçirilərək kükürd birləşmələrinin havanın çirkləndirilməsindəki rolu, yanacaq tərkibində kükürd birləşmələrinə qoyulan limitlər, kükürd emissiyalarına nəzarət zonaları (SECA), eləcə də kükürd birləşmələrindən yaranan qazların təsirini azaltmaq üçün istifadə edilə biləcək alternativ yollar haqqında danışılıb.

Daha sonra, emissiyaların azaldılması üzrə metodlara dair keçirilən təqdimat zamanı aşağı kükürd tərkibli yanacağın istifadəsinin və ya gəmilərdə istifadə olunan yanacağın tərkibində yaranan kükürd birləşmələrinin təsirinin azaldılması üçün tətbiq oluna biləcək qaz tullantılarının təmizlənməsi sistemləri (EGCS), bioyanacaqlar, metanol tərkibli yanacaqlar və elektrik enerjisindən gəmilərdə istifadə edilməsi, həmçinin bu cür alternativ metodların faydalı və zərərli tərəfləri haqqında ətraflı məlumat iştirakçıların diqqətinə çatdırılıb.

Təlim zamanı Konvensiyanın VI Əlavəsində kükürd birləşmələrinə dair qaydaların tətbiqi, nəzarət və uyğunluq haqqında təqdimat keçirilərək Konvensiyaya tərəfdar çıxmış dövlətlərin bayraq və liman dövləti öhdəlikləri, liman qəbuledici qurğular, yanacağın tərkibi və keyfiyyəti haqqında bir sıra vacib məlumatlar verilib. Həmçinin azot birləşmələri, onların formalaşması, azot birləşmələri üzrə texniki məcəllə, azot emissiyalarına nəzarət zonaları, azot birləşmələrindən yaranan tullantıların təsirinin azaldılması, bu sahədə yoxlama və sertifikatlaşma ilə əlaqədar, ozon dağıdıcı maddələr, onların təsirlərinin azaldılması, Montreal Protokolu, uçucu orqanik maddələr, insineratorlar və bu sahədə sertifikat və yoxlamalarla bağlı, enerji effektivliyinin dizayn indeksi, gəminin enerji effektivliyinin idarə olunması üzrə plan və Konvensiyanın VI Əlavəsinin enerji effektivliyi ilə bağlı qaydalarına dair təqdimatlar keçirilib. Enerji effektivliyinin dizayn indeksinin hesablanması, istixana qazlarının təsirinin azaldılması sahəsində Avropa Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin araşdırmaları haqqında məlumat təlim iştirakçılarının diqqətinə çatdırılıb.

Təlimin sonunda isə iştirakçı dövlətlərin nümayəndələrinə sertifikatlar təqdim edilmişdir.

## DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINMIŞ YÜKLƏRİN HƏCMİ ARTIB

***Dəniz nəqliyyatı ilə bu ilin yanvar-oktyabr aylarında daşınmış yüklərin həcmi 6684,3 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 46,1 faiz artıb. Yüklərin 49,3 faizini neft yükləri təşkil edib.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, dəniz limanlarında 8666,7 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 95,6 faizini tranzit yüklər təşkil edib. Cari il noyabr ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 194,6 min ton idxal yükləri olub.

Hesabat dövrü ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,9 min nəfər təşkil edib.



## AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI QAZAXISTANIN UNİVERSİTETİ İLƏ MEMORANDUM İMZALAYIB









***Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA) Qazaxıstanın universiteti ilə memorandum imzalayıb.***

Azərbaycan Dövlət Dəniz Akademiyasının beynəlxalq əlaqələri genişlənir. ADDA-nın bu istiqamətdə ən yaxın tərəfdaşlarından biri Qazaxıstanın Ş.Yesenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universitetidir. Akademiya bu universitetlə 2011-ci ildə bağlanmış müqaviləyə əsasən "İkili diplom təhsili" beynəlxalq proqramı çərçivəsində Qazaxıstan üçün bakalavr və magistr dərəcələri üzrə 40-a yaxın mütəxəssis hazırlayıb.

Qarşılıqlı faydalı əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə ADDA-nın rektoru Çingiz Əliyev, tədris və tərbiyə işləri üzrə prorektor Zahid Şərifov və Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının nümayəndəsi Vüsal Mustafayevdən ibarət nümayəndə heyəti Aktauda işgüzar səfərdə olub.

Səfər zamanı Xəzər Dövlət Texnologiya və Mühəndislik Universitetinin rektoru Berik Axmetov ilə "İkili diplom təhsili" beynəlxalq proqramının davam etdirilməsinə dair danışıqlar aparılıb. Müzakirələrin nəticəsi olaraq bu proqramın davam etdirilməsi məqsədilə qarşılıqlı razılaşmaya əlavə kimi yeni memorandum imzalanıb. Memoranduma əsasən, birgə elmi-tədqiqatların aparılması, əldə olunmuş nəticələrin beynəlxalq konfranslarda müzakirəsi, elmi məcmuələrdə birgə dərc edilməsi də qərara alınıb.

Azərbaycan nümayəndələri universitetin maddi-texniki bazası ilə yaxından tanış olublar. Görüş çərçivəsində ADDA-nın nəzdində olan Təlim-Tədris Mərkəzində Qazaxıstan dənizçiləri üçün kursların təşkili məsələsini də müzakirə ediblər.

Universitetin professor-müəllim və tələbə heyəti ilə görüşdə ADDA-nın rektoru Çingiz Əliyev geniş məruzə ilə çıxış edərək sualları cavablandırıb. Sonra 2016/2017-ci tədris ilində akademiyanı bitirmiş qazaxıstanlı tələbələrə ADDA-nın diplomları təqdim olunub. Qazaxıstanlı məzunlar təhsil illərində göstərilən qayğıya və yüksək səviyyəli tədrisə görə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyinə, Dəniz Akademiyasının professor-müəllim heyətinə dərin təşəkkürlərini bildiriblər.

## DƏNİZ AKADEMİYASININ TƏLƏBƏLƏRİ GƏMİDƏ TƏLİM KEÇİBLƏR

***ADDA-nın "Dəniz naviqasiyası mühəndisliyi, "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarında təhsil alan I kurs tələbələri üçün "Sabit Orucov" tədris gəmisində təlim keçirilib.***

Təlimdə "Xilasedici vasitələr, yanğınla mübarizə və gəminin yaşaması üzrə hazırlıq" fənninin proqramına uyğun olaraq fərdi və kollektiv şəkildə gəmidə yanğın zamanı zəruri fəaliyyət, daimi sayıqlıq, yanğın və tüstünün aşkarlanması, yanğına qarşı avadanlıqlar və onların gəmidə yerləşdirilməsi, qəza evakuasiya yollarından istifadə tələbələrə əyani nümayiş etdirilib.

İkigünlük təlim Akademiyanın "Dəniz naviqasiyası" kafedrasının baş müəllimi İsmayıl Dünyamalıyevin rəhbərliyi altında baş tutub.

Məşq prosesində "Sabit Orucov" gəmisinin heyəti də iştirak edib. Belə ki, yanğın əleyhinə profilaktika qrupunun nümayəndəsi Z. Əliyev, kapitanın böyük köməkçisi R.Şəfiyev, bosman R.Rzayev və kapitanın yanğın üzrə köməkçisi N.Agayev tələbələrə köməklik göstəriblər.

Növbəti həftələrdə "Sabit Orucov" gəmisində "Xilasedici vasitələr, yanğınla mübarizə və gəminin yaşaması üzrə hazırlıq" fənninin proqramına uyğun ilk tibbi yardım üsullarına dair I kurs tələbələri üçün təlimlər keçiriləcək.

















## XƏZƏRYANI DÖVLƏTLƏRİN HƏRBİ DƏNİZ QÜVVƏLƏRİ KOMANDANLARININ GÖRÜŞÜ OLACAQ

***"Xəzər sülh və dostluq dənizi olaraq qalacaq. İran və digər Xəzəryanı ölkələr dəniz vasitəsilə əməkdaşlıq əlaqələrini artırıblar."***

Bu sözləri İran ordusunun dəniz qüvvələrinin komandanı admiral Hüseyn Hanzadi keçirdiyi mətbuat konfransında deyib.

Admiral qeyd edib ki, İran, Rusiya, Azərbaycan, Türkmənistan və Qazaxıstanın dəniz qüvvələri sülhün və əmin-amanlığın qorunması istiqamətində əməkdaşlıq edirlər və bu əməkdaşlıq gündən-günə genişlənir.

H.Hanzadi diqqətə çatdırıb ki, gələn ilin may ayında Xəzəryanı dövlətlərin dəniz qüvvələrinin komandanları İranın Gülüstan vilayətində görüşəcəklər. Görüşdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və birgə hərbi təlimlərin keçirilməsi məsələləri müzakirə ediləcək.





## YÜKLƏRİN AZƏRBAYCAN ÜZƏRİNDƏN DAŞINMASI TRANZİT GƏLİRİ ARTIRACAQ

***Cari ilin səkkiz ayında İran ilə Avropa İttifaqına (Aİ) daxıl olan dövlətlər arasında ticarət dövriyyəsinin həcmi 13,1 milyard avroya çatıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə çoxdur.***

İranın milli statistika bürosunun məlumatına görə, qeyd olunan dövr ərzində Aİ-dən 6,6 milyard avro dəyərində idxal əməliyyatı aparılıb. İrandan Aİ-yə isə ixracın həcmi 6,5 milyard avro dəyərində olub.

İranın Avropa ölkələri ilə idxal-ixrac əməliyyatlarının bir il ərzində bu qədər artması daşımaların artmasına səbəb olub. Bu fakt Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətini daha da artırır. Təsadüfi deyil ki, İran dövlət dəmir yolu şirkətinin idarə heyətinin üzvü Hoseyn Aşuri gələn il daşınan yüklərin artacağını bildirib. O qeyd edib ki, qarşıdakı ildə İran təkcə Azərbaycan üzərindən 2,5 milyon ton yükü Rusiya və Avropa ölkələrinə daşıyacaq. Fransa, Almaniya, Böyük Britaniya, İtaliya və İspaniya İran ilə daha çox ixrac-idxal əməliyyatları aparan ölkələrdir.

Qeyd etmək lazımdır ki, Rəşt-Astara yolu istifadəyə verildikdən sonra H.Aşurinin göstərdiyi rəqəm dəfələrlə artacaq. Çünki H.Aşuri yalnız İranın ixrac etdiyi yüklərin həcmindən danışıb. Rəşt-Astara yolu ilə İrandan başqa, Fars körfəzi və Cənub-Şərqi Asiya ölkələrinin idxal-ixrac əməliyyatları da həyata keçiriləcək. Bütün yüklər Azərbaycanın üzərindən daşınacaq və ölkəmizin tranzit gəlirləri ciddi şəkildə artacaq.

## GƏMİÇİLİYİN NÜMAYƏNDƏSİ "DƏNİZDƏ VƏ QURUDA NEFT DAĞILMALARINA NƏZARƏT" ADLI KONFRANSDA İŞTİRAK EDİB







***27-28 noyabrda Bakıda "Confidence Capital" şirkətinin təşkilatçılığı, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, BP, SOCAR və LAMOR şirkətlərinin dəstəyi ilə "Dənizdə və Quruda Neft Dağılmalarına Nəzarət" mövzusunda V praktiki konfrans keçirilib.***

Nüfuzlu beynəlxalq "Lukoil", "Desmi", "Lamor", "Aerodata", "Qazpromneft Shelf", "Kazmortransflot", "Oil Spill Response Limited", "BP" şirkətlərinin, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər, habelə Fövqəladə Hallar Nazirliklərinin, SOCAR-ın, bir çox özəl və qeyri-hökumət qurumlarının iştirak etdiyi tədbirdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətini Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin aparıcı mühəndisi Sabir Kərimzadə təmsil edib.

Konfransda Sabir Kərimzadə "Gəmiçilikdə dənizin neftlə çirklənməsinə qarşı qabaqlayıcı tədbirlər" mövzusunda çıxış edib. O, quru yük gəmiləri, tankerlər və bərələrlə müxtəlif növ dəniz daşımalarını, habelə Xəzərin Azərbaycana aid kontinental şelfindəki neft-qazçıxarma obyektlərinə nəqliyyat-texnoloji xidmət göstərilməsini həyata keçirən "AXDG" QSC-nin yaradıldığı 4 il ərzində ətraf mühitin mühafizəsi, o cümlədən ekoloji idarəetmə istiqamətində aparılan işlər barədə geniş danışıb. Bildirib ki, Gəmiçilikdə bu məsələlərə böyük önəm verilir və əsas davamlı inkişaf meyarlarından biri sayılır. Aparıcı mühəndis qısa müddətdə tərtib və təsdiq edilərək tətbiq olunmuş sənədlər (Cəmiyyətin "Tullantıların idarə olunması Planı", "Təhlükəsizliyin Keyfiyyətli İdarə Olunması Sistemi" və s.), o cümlədən neftlə mübarizə yönümündə icra olunan müxtəlif tədbirlər (Cəmiyyəyin "Fövqəladə və Qəza Hallarında Ekoloji Təhlükəsizlik Haqqında Tədbirlər Proqramı", "Böhran Qrupu", gəmilərdəki "Neft dağılmalarına qarşı gəmi fövqəladə mübarizə planı", həmçinin "Neftlə mübarizə" təlim-məşqləri) haqqında da ətraflı məlumat verib.

Faktlar və istinadlarla təqdim olunmuş məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.




## "PİONEERİNG SPİRİT" GƏMİSİ QARA DƏNİZDƏ İŞLƏRİNİ DAVAM ETDİRİR

***"Türk axını" qaz boru kəmərinin ("Turkish Stream") dəniz hissəsinin tikintisinin 30 faizi tamamlanıb.***

"TurkStream" şirkəti xəbər verir ki, boru kəmərinin Qara dənizin altında inşa edilən iki xəttinin ümumi uzunluğu 555 kilometrə çatıb. Bu hissə çox qısa müddətdə tamamlanıb.

Boru kəmərini dəniz yatağına döşəyən "Pioneering Spirit" gəmisi hazırda Qara dənizdə işlərini davam etdirir. Gəmi 2 min 191 metr dərinlikdə boru kəmərinin çəkilişini həyata keçirir. Gəminin boru döşəmə gücü gündəlik təxminən 4 kilometrdir.

İki xətdən ibarət olan və hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq layihənin dəniz hissəsinin tikintisini Rusiyanın "Gazprom" şirkətinin 100 faizlik törəməsi olan "South Stream Transport B.V." həyata keçirir.

Qeyd edək ki, "Türk axını" boru kəməri ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Kəmərin dəniz hissəsinin uzunluğu 910 kilometrə yaxın, quru hissəsi isə Türkiyə ərazisi üzrə 180 kilometrdir. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Hər bir xəttin illik ötürücülük gücü 15,75 milyard kubmetrdir. Layihənin ümumi dəyəri 11,4 milyard avro həcmində qiymətləndirilir.



## ASTARA (İRAN)-ASTARA (AZƏRBAYCAN) DƏMİR YOLU XƏTTİ İSTİSMARA VERİLDİKDƏN SONRA NƏQLİYYAT TARİFLƏRİ AŞAĞI SALINACAQ

***Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti istismara verildikdən sonra yük daşımalarına tətbiq olunan nəqliyyat tarifləri aşağı salınacaq.***

Bu barədə AZƏRTAC-a məlumat verən İran Dövlət Dəmir Yolları İdarəsinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Hoseyn Aşuri bildirib ki, İran, Azərbaycan, Rusiya və Belarus tariflərin aşağı salınması haqqında razılıq əldə ediblər. Onun sözlərinə görə, tariflərin aşağı salınması "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətini tənzimləyəcək və onu Cənub-Şərqi Asiya ölkələri üçün daha da cəlbedici edəcək.

H.Aşuri deyib ki, Qəzvin-Rəşt dəmir yolunun davamı olacaq Rəşt-Astara xəttində işlər davam edir. Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti isə dekabrın sonunda istifadəyə veriləcək.

***Rabil Kətanov***

## "TRANSXƏZƏR ŞƏRQ-QƏRB TİCARƏT VƏ TRANZİT DƏHLİZİNİN İMKANLARI" MÖVZUSUNDA BİZNES-FORUM KEÇİRİLİB






***Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyinin təşkilatçılığı, Alman-Azərbaycan Forumu, Alman İqtisadiyyatının Şərq Komitəsi və "Deutsche Bank"ın dəstəyi ilə noyabrın 22-də Berlində Azərbaycanın nəqliyyat, tranzit və logistika potensialına həsr olunmuş "Transxəzər Şərq-Qərb ticarət və tranzit dəhlizinin imkanları" mövzusunda biznes-forum keçirilib.***

Tədbirdə Almaniyanın dövlət qurumlarının, özəl sektorun və kütləvi informasiya vasitələrinin 100-ə yaxın nümayəndəsi iştirak edib. Almaniyanın "Deutsche Bahn Engineering and Consulting GmbH", "Airbus", "Kühne & Nagel", "Kocks Ardelt Kranbau GmbH", "Uniper" və digər qabaqcıl şirkətləri toplantıda təmsil olunublar.

Alman-Azərbaycan Forumunun idarə heyətinin üzvü, "Deutsche Bank"ın Mərkəzi və Şərqi Avropa ölkələri üzrə icraçı direktoru Peter Tils qonaqları salamladıqdan sonra Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov və Alman İqtisadiyyatının Şərq Komitəsinin icraçı direktoru Mixael Harms giriş nitqləri söyləyiblər.

Səfir Ramin Həsənov çıxışında ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində və qeyri-neft sektorunun inkişafında nəqliyyat sektorunun əhəmiyyətini vurğulayıb və Azərbaycanın transregional nəqliyyat bağlantılarının daha da gücləndirilməsinə verdiyi töhfə barədə danışıb. O, Azərbaycanın həyata keçirdiyi regional layihələr və alman şirkətləri üçün yaranan biznes perspektivlərini qeyd edib. Ramin Həsənov, həmçinin Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşadığını və işğal olunmuş ərazilərimizdə nəqliyyat infrastrukturunun vəhşicəsinə dağıdıldığını iştirakçıların diqqətinə çatdırıb, işğalın regional əməkdaşlığa və davamlı inkişafa əsas maneə olduğunu vurğulayıb.

Mixael Harms çıxışında cari ildə Azərbaycanda səfərdə olduğunu və təmsil etdiyi Alman İqtisadiyyatının Şərq Komitəsinin gələn il ölkəmizə yüksək səviyyəli nümayəndə heyətinin səfərini həyata keçirəcəyini bildirib. Natiq ölkəmizdə dinamik inkişafın şahidi olduğunu, müxtəlif sahələrdə iqtisadi islahatların aparıldığını və nəticədə Azərbaycanın nəqliyyat və logistika sahələrində əməkdaşlıq üçün yeni imkanların yarandığını qeyd edib.

Daha sonra Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası ofisinin rəhbəri Elçin Əhmədov "Trans-Xəzər nəqliyyat dəhlizinin perspektivləri", Dövlət Dəniz Administrasiyası Aparatının rəhbəri Əhməd İsmayılov "Trans-Xəzər dəhlizi vasitəsilə dəniz nəqliyyatı", Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin ticarət dövriyyəsində yüklərə nəzarət şöbəsinin baş inspektoru Fərid Vəliyev "Gömrük və sərhəd keçidinin asanlaşdırılması", Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktorunun müşaviri Tural Əliyev "Bir kəmər-bir yol təşəbbüsünün reallaşdırılmasında Ələt azad ticarət zonası əsas alət kimi", "ADY Konteyner" MMC-nin direktoru Natiq Cəfərov "Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb dəmir yolu şəbəkələri vasitəsilə yeni tranzit imkanları" mövzularında məruzələrlə çıxış ediblər. Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Biznes-forumda Trans-Xəzər nəqliyyat dəhlizi haqqında videoçarx nümayiş olunub.

Tədbir çərçivəsində, eyni zamanda, Almaniyanın özəl sektorunun nümayəndələri ilə keçirilmiş işçi nahar zamanı "B2B" danışıqları və biznes şəbəkələşməsi müzakirələri baş tutub.

***Vüqar Seyidov***

## DANİMARKA "ŞİMAL AXINI 2" QAZ BORU KƏMƏRİNƏ QARŞI ÇIXIB




***Danimarka "Şimal axını 2" ("Nord Stream 2") qaz boru kəmərinə qarşı çıxıb.***

Danimarka Parlamenti bu boru kəmərinin ölkənin su sərhədlərindən keçməsini müzakirə edib. Parlament "Şimal axını 2" boru kəmərinin Baltik dənizindən keçməsinin qarşısını almaq üçün qanun layihəsi qəbul edib. Bu qanunla Danimarka "Şimal axını 2" boru kəmərinin ölkənin su sərhədlərindən keçməsinə qarşı çıxıb. Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Yeni qanuna görə Danimarka xarici işlər naziri boru kəmərlərinin ölkənin su sərhədindən keçib-keçməməsi barədə qərar qəbul edə biləcək.

Qeyd edək ki, "Gazprom", "E.ON", "BASF" və "OMV" şirkətləri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql edəcək gücə malik 200 kilometr uzunluğundakı "Şimal axını 2" qaz kəməri üzrə müqavilə imzalayıblar.

## TƏTBİQ OLUNAN VERGİ GÜZƏŞTİ NƏTİCƏSİNDƏ YÜKDAŞIMALARIN HƏCMİ 1,7 FAİZ ARTIB



***Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərə əsasən, Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar ötən ildən 3 il müddətinə yol vergisindən azad edilib və bu güzəşt dəmir yolu ilə yanaşı, yük avtomobilləri və digər avtonəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına da tətbiq olunur.***

vergiler.az saytı bildirir ki, 2017-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda yükdaşımaların həcmi 185,9 milyon ton təşkil edib, bu da 2016-cı ilin analoji dövrünün göstəricisindən 1,7 faiz çoxdur.

Daşımalarda qeyri-neft məhsullarının həcmi 3,7 faiz artıb.

Qeyd olunub ki, yükdaşımalarla bağlı sahibkarlara verilən imtiyazlar, gömrük-vergi güzəştləri və ixrac sənədləşdirməsinin asanlaşdırılması həm yerli sahibkarların ixrac qabiliyyətinin, həm də digər dövlətlərə Azərbaycan üzərindən mal aparan şirkətlərin sayının artmasına təkan verir.

## TANAP VƏ "ŞAHDƏNİZ-2" 2018-Cİ İLDƏ AZƏRBAYCANIN İQTİSADİ ARTIMINA TƏKAN VERƏCƏK

***TANAP və "Şahdəniz-2" layihələrinin reallaşdırılması 2018-ci ildə Azərbaycanın iqtisadi artımına təkan verəcək.***

Bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) hesabatında deyilir. Bildirilir ki, Azərbaycanın ÜDM-i 2018-ci ildə 2 faiz artacaq.

"Mühüm qaz infrastruktur layihələrinin ("Şahdəniz-2", TANAP) reallaşdırılmasının 2018-ci ildə ölkədə iqtisadi artıma təkan verəcəyi gözlənilir. ÜDM-in isə gələn il 2 faiz artacağı proqnozlaşdırılır", - deyə hesabatda qeyd edilir.




Qeyd edək ki, EBRD 1992-ci ildən Azərbaycanla əməkdaşlıq edir. Bu müddət ərzində bank ölkə iqtisadiyyatına təxminən 2,8 milyard dollar sərmayə yatırıb.

TANAP layihəsi ilə Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq təbii qazın Türkiyənin qərb sərhədlərinə və oradan da Avropaya nəqli nəzərdə tutulur. Təbii qaz 2018-ci ilin ortalarında Türkiyəyə çatdırılacaq. TAP boru kəmərinin tikintisi başa çatdıqdan sonra isə təbii qaz 2020-ci ilin əvvəlində Avropaya göndəriləcək.

TANAP-ın uzunluğu 1850 kilometrdir və ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr qazdır. Bu qaz həcminin 6 milyard kubmetrinin Türkiyəyə, qalan 10 milyard kubmetrinin isə Avropa bazarına ötürülməsi nəzərdə tutulur.

## SƏUDİYYƏ ƏRƏBİSTANI BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATINA BİR MİLYON DOLLAR İANƏ EDİB



***Səudiyyə Ərəbistanı Beynəlxalq Dəniz Təşkilatının (IMO) fəaliyyətinə dəstək göstərmək üçün ona bir milyon dollar ianə edib. Bu barədə məlumatı SPA dövlət informasiya agentliyi yayıb.***

İki Müqəddəs Ocağın Xadiminin Böyük Britaniyadakı səfiri əmir Məhəmməd ibn Nəvaf ibn Əbdüləziz maliyyə yardımı haqqında məktubu Londonda Beynəlxalq Dəniz Təşkilatının baş katibi Kitak Limə təqdim edib.

IMO-ya ianə bu qurumun fəaliyyətini, o cümlədən dəniz sektorunda hazırlıq əməliyyatlarını, piratlığa və dəniz gəmiçiliyinin təhlükəsizliyinə təhdidlərə qarşı mübarizəni maliyyələşdirmək, habelə IMO yanında kompleks texniki əməkdaşlıq proqramlarını və digər fəaliyyəti dəstəkləmək üçün nəzərdə tutulur.

Bildirilir ki, bu addım üç qitəni birləşdirən strateji mövqeyi sayəsində Krallığın dünyanın logistik mərkəzinə çevrilməsinə tuşlanan "Səudiyyə Ərəbistanı Krallığının baxışları-2030" strategiyasına uyğundur.

Səudiyyə Ərəbistanının ianəsi Hind okeanının qərbindəki Ədən körfəzində dəniz gəmiçiliyinin təhlükəsizliyini təhdid edən piratlığa qarşı mübarizədə Cibuti Respublikasını dəstəkləməyə və Afrikanın qərbində və şərqində piratlığa qarşı mübarizəyə yönəldiləcək.

IMO-nun baş katibi Kitak Lim təsdiq edib ki, Səudiyyə Ərəbistanı beynəlxalq təşkilatla birlikdə ciddi işlər görür. Baş katib ümidvar olduğunu bildirib ki, Krallıq təhlükəsizliklə bağlı olan bütün sahələrə böyük dəstək göstərməyə davam edəcək.

***Asya Hacızadə***

# AZƏRBAYCANIN TARİXİ TALEYİ XƏZƏRLƏ AYRILMAZ SURƏTDƏ BAĞLIDIR

***Azərbaycanın tarixi taleyi Xəzərlə ayrılmaz surətdə bağlıdır. Azərbaycan öz coğrafi mövqeyinə görə iki min ildən artıq müddətdə Qafqaz-Xəzər regionunda əsas geosiyasi qüvvələrin mübarizəsində mühüm tərkib hissələrindən biri, bu regionda baş verən hərbi-siyasi hadisələrin mərkəzi olub və bu gün də belədir.***

Tarix elmlər doktoru, Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının adyunktura və elm şöbəsinin professoru Nurulla Əliyevin və tarix elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru mərhum Pərvin Darabadinin "Qafqaz-Xəzər regionunda geosiyasət və Azərbaycan" kitabı bu sözlərlə başlanır.




Səkkiz fəsildən ibarət olan kitabda üç minillik ərzində Azərbaycan ərazisində baş vermiş hərbi-tarixi hadisələr əhatə olunub. Əsər Qafqaz-Xəzər regionu üzərində nəzarət uğrunda çoxəsrlik geosiyasi rəqabətin tarixinin tədqiqinə həsr edilib. Bəşər sivilizasiyasının tarixi inkişafında bu regionun daim artan əhəmiyyəti göstərilib.

Monoqrafiyada orta əsrlərdə və XVIII-XX yüzilliklərdə Qafqaz-Xəzər regionunda aparıcı dövlətlərinin mübarizəsi tarixi məsələlərinə xeyli yer ayrılıb. Müasir dövrdə formalaşmaqda olan geostrateji mərkəzlər arasında geosiyasi rəqabətə qiymət verilib, bu proseslərdə Azərbaycanın mühüm rolu açıqlanıb.

Kitabda Antik dövrdə Qafqaz-Xəzər regionu, Böyük İpək Yolunun əsas hissələrindən biri olan Xəzəryanı yol üzərində nəzarət uğrunda Qafqaz-Xəzər regionunda hərbi-siyasi mübarizə (III-XVII əsrlər), Qafqaz-Xəzər regionu – Yaxın və Orta Şərqdə geosiyasi rəqabət arenası (XVIII-XIX əsrlər), XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlində Qafqaz-Xəzər regionu "Böyük geosiyasi oyunda", Qafqaz-Xəzər regionu – Böyük Dövlətlərin geosiyasi rəqabət obyekti, geosiyasət və Birinci Dünya müharibəsi, 1918-1920-ci illərdə Qafqaz-Xəzər regionunda hərbi-siyasi hadisələr, Qafqaz və Xəzər İkinci Dünya müharibəsi ərəfəsində və müharibə dövründə "böyük geostrategiya"da, Qafqaz-Xəzər regionu XX-XXI əsrlərin qovuşuğunda ən mühüm geosiyasi mərkəzlərdən biridir mövzularına xüsusi diqqət yetirilib.

Nəşrin hərbi məsləhətçisi Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının rəisi, general-leytenant, dosent Heydər Piriyev, elmi məsləhətçisi - filologiya elmləri doktoru Sədi Nuriyev, redaktoru – tarix üzrə fəlsəfə doktoru, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri Səbuhi Əhmədovdur. Ali humanitar məktəblərin və xüsusi təyinatlı tədris müəssisələrinin müəllimləri, adyunktları və aspirantları, tələbələri və kursantları üçün nəzərdə tutulan bu kitab, heç şübhəsiz, Qafqaz-Xəzər regionunun tarixinə dair zəruri biliklərin gənc nəslə çatdırılması işinə sanballı töhfədir.

# XƏZƏRDƏ QİYMƏTLİ BALIQ NÖVLƏRİNİN EHTİYATININ HESABLANMASI İLK DƏFƏ AZƏRBAYCAN ALİMLƏRİ TƏRƏFİNDƏN APARILIB

***Azərbaycanda Xəzər dənizinin bioresurslarının idarə edilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti, dəniz bioresurslarının sistemli tədqiqatları isə ETSN-in tabeliyində olan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu tərəfindən həyata keçirilir.***

Xəzər dənizində yaşayan vətəgə əhəmiyyətli qiymətli balıq növlərinin ehtiyatının mütləq sayının müəyyən edilməsi, müxtəlif yaş qruplarında təbii yolla məhv olma əmsallarının təyin edilməsi balıqçılıq tədqiqatları tarixində ilk dəfə olaraq bizim institut tərəfindən aparılıb. Uzunburun balığının timsalında nərəcinsli balıqların ehtiyatının hesablanması üzrə institut tərəfindən işlənib hazırlanan və bu gün də öz əhəmiyyətini itirməyən orijinal metod klassik tədqiqatlar nümunəsi kimi təkrar nəşr olunub və bütün Xəzəryanı dövlətlər tərəfindən istifadə olunur. Xəzər dənizinin unikal bioresurslarının qorunması üzrə müəyyən işlər həyata keçirilir və proses davam etdirilir.



Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin su hövzələrində bioresursların artırılması sektorunun müdiri Fəridə Ələkbərova məlumat verib.

Sektor müdiri qeyd edib ki, departamentin fəaliyyətinin əsas istiqamətlərindən biri balıq ehtiyatlarının mühafizəsidir. Belə ki, qurum ov müddəti, ov alətləri, ov yerləri, ovlanan balıq növləri, balıq ovu kvotasına riayət üzrə və s. balıq ovuna nəzarət edir və onu tənzimləyir. Qaydalar üzrə həvəskar ovçuluqla məşğul olanlara adambaşına bir gündə 5 kiloqramdan artıq balıq ovlanmasına icazə verilmir. Qaydaların istənilən şəkildə pozulması balıq ovu qaydalarının pozulması hesab edilir və qanunla cəzalandırılır. Qaydalara əsasən, balıq ovuna icazəsi olmayan (balıq ovu bileti olmayan) balıqçılar brakonyer hesab edilir. Brakonyerliklə mübarizə üzrə nazirliyin aidiyyəti təşkilatları, hüquq mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti və Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarının iştirakı ilə birgə kompleks tədbirlər görür.



# AVROPAYA KEÇMƏK İSTƏYƏN 3 MİN MÜHACİR DƏNİZDƏ HƏLAK OLUB

***2017-ci ildə Avropa sahillərinə can atan azı 3033 qeyri-leqal mühacir və qaçqın Aralıq dənizində bataraq həlak olub.***

Interfax informasiya agentliyi xəbər verir ki, bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı (The International Organization for Migration, IOM) məlumat yayıb.

"İllərlə bu barədə danışmışıq və danışmağa davam edirik: bu faciəvi statistikanı qeydə almaq yetərsizdir. Biz fəaliyyətə başlamalıyıq", - deyə təşkilatın Baş direktoru Uilyam Leysi Svinq qeyd edib.

Bununla yanaşı, 2017-ci ildə ölüm halları 2016-cı ilə nisbətən 40 faiz azalıb. Ötən il Aralıq dənizində 5 min ölüm faktı qeydə alınmışdı.

Qeyd edək ki, cari ildə Avropaya 164 min nəfərə yaxın insan gəlib ki, bu da ötən illə müqayisədə təxminən iki dəfə azdır (348 min nəfər). Ümumilikdə isə 2015-ci ildən bəri 1,5 milyon nəfərdən çox mühacir Avropa ərazisinə keçməyə nail olub.

# QAÇQINLARIN SAXLANMA ŞƏRAİTİ AVROPA KOMİSSİYASININ BAŞÇISINI DƏHŞƏTƏ GƏTİRİB

***Avropa Komissiyasının sədri Yan-Klod Yunker Aralıq dənizi marşrutu ilə Avropaya keçməyə cəhd göstərmiş və hələ də bu ümidlərini üzməmiş qaçqınların Liviyada saxlandığı şəraitlə tanış olanda dəhşətə gəlib.***



Yan-Klod Yunker alman KİV-lərinə verdiyi müsahibədə Liviyadakı qaçqınların vəziyyətini "cəhənnəm" adlandırıb. O, heyrətlənmiş halda deyib ki, yerli düşərgələrdə qaçqınları qarət edir və öldürürlər, Avropa İttifaqı bu barədə susmayacaq.

Yunker vurğulayıb: "Aralıq dənizi vasitəsilə Avropaya gəlib çıxa bilməyən miqrantların sayı artır, lakin bu, qaçqınlar üçün düşərgələrdən daha çox həbsxanaları xatırladan yerlərdə saxlanılan insanları zədələməyə, onları öldürməyə və qarət etməyə əsas vermir".

*Vüqar Seyidov*

# KAPİTANLAR "DƏNİZDƏ MÜSTƏSNA CƏSARƏT MÜKAFATI"NA LAYİQ GÖRÜLÜBLƏR

***Kapitanlar Gi və Filips böyük dəniz fəlakətinin qarşısını aldıqlarına görə Beynəlxalq Dəniz Təşkilatının (IMO-nun) "Dənizdə müstəsna cəsarət mükafatı"-na layiq görülüblər.***

2016-cı ilin sentyabrında onların idarə etdiyi 247 metr uzunluğundakı gəmi Hyuston kanalında delfinə çarpılma nəticəsində alova qərq olub. Kapitanlar Gi və Filips yanğının kanalın digər tərəfinə keçməsinin qarşısını ala biliblər. Onlar yanğınla təxminən 90 dəqiqə mübarizə aparıblar. Yüngül yanıq xəsarətləri alsalar da, alovu dəf etməyə müvəffəq olublar.

Dənizçilər bu mükafata "Belnəlxalq Kapitanlar Birliyi" tərəfindən namizəd göstərilib.

Medal və sertifikatı təqdim edən IMO-nun baş katibi Ki Tak Lim onları qəhrəman adlandırıb.

Xatırladaq ki, hər il təqdim olunan bu mükafat öz həyatını riskə atıb, müstəsna cəsarət nümayiş etdirən, dənizdə can qurtarmağa çalışan və ya zərərin qarşısını almağa cəhd göstərən dənizçilərə verilir. Bu il sözügedən mükafat üçün 16 üzv ölkədən 33 namizəd irəli sürülmüşdü.

# XƏZƏR HÖVZƏSİNİN SU SƏVİYYƏSİNİN DƏYİŞMƏLƏRİ ŞİMAL YARIMKÜRƏSİNDƏ İQLİM DƏYİŞMƏLƏRİ İLƏ ƏLAQƏDARDIR

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi seminarında paleocoğrafiya şöbəsinin elmi işçisi Elşən Abdullayev "Mikropaleontoloji, mineroloji və geokimyəvi məlumatlar əsasında Xəzər hövzəsinin Plio-Pleystosen dövründə paleoşəraitin öyrənilməsi" mövzusunda məruzə edib.***

Eyniadlı qrant layihəsi üzrə aparılan bu iş Türkiyənin Elmi və Texniki Araşdırmalar Komitəsinin, Muğla Sıtkı Koçman Universitetinin elmi fondu ilə birgə əməkdaşlıq əsasında aparılıb. İşin əsas məqsədi mikropaleontoloji, mineroloji və geokimyəvi analizlər nəticəsində Akcagil və Abşeron dövründə Xəzər hövzəsinin iqlim dəyişmələrini, dəniz suyunun duzluluğunu və dəyişmələrini araşdırmaqdır. Tədqiqatın nəticələrinə əsasən məlum olub ki, Akcagil və Abşeron dövründə Xəzər hövzəsinin su səviyyəsinin dəyişmələri şimal yarımkürəsində iqlim dəyişmələri ilə əlaqədardır.



# QAYIQ ÇOX YÜKLƏNDİYİ ÜÇÜN ÇEVRİLƏRƏK BATIB

***Liviya sahillərində miqrantları daşıyan qayığın batması 30-dan çox insanın ölümü ilə nəticələnib.***




İtaliyanın "Corriere della sera" qəzetinin Liviya hərbi-dəniz donanmasının nümayəndəsinə istinadla yaydığı məlumata görə, həyatını itirən 31 nəfərdən 3-ü uşaq, 18-i qadındır. Ağır vəziyyətdə olan 80 nəfər isə xilas edilərək Tripolidəki hərbi bazaya çatdırılıb.

İlkin məlumata əsasən, qayıq çox yükləndiyi üçün çevrilərək batıb. Liviya dənizçiləri xilasetmə əməliyyatının gedişində, həmçinin 120 miqrantın olduğu bərə də aşkarlayıblar.

# İTƏN SUALTI QAYIĞIN HEYƏTİNİN XİLASINA ÜMİD QALMAYIB






***Atlantik okeanında Argentinaya məxsus "San-Juan" sualtı qayığın axtarışları davam edir. Lakin hadisə 3 həftə bundan öncə baş verdiyi üçün heyət üzvlərinin xilas edilməsinə ümid qalmayıb. Belə ki, qayıqda yalnız bir həftəlik oksigen ehtiyatı olub.***

Euronews telekanalı xəbər verir ki, sualtı qayıqdan siqnal son dəfə o, Argentina sahillərindən 480 kilometr cənubda olarkən alınıb. Sualtı qayıqda partlayışın baş verdiyi ehtimal edilir.

İtkin düşən heyət üzvlərinin ailələri hökumət orqanlarının qəzanın səbəblərini və sualtı qayığın yoxa çıxmasını vaxtında müəyyən edə bilməməsindən hiddətlənib. Həmçinin Prezident Maurisio Makri hökuməti tərəfindən hərbi sektorun maliyyələşməsinin azaldılması onun liberal kabinetinin siyasətindən narazılıqları artırır.

Xatırladaq ki, "San-Juan" sualtı qayığı noyabrın 15-də "Uşuaya" limanından Mar-del-Plata şəhəri istiqamətində üzən zaman onunla əlaqə kəsilib. Qayığın göyərtəsində 44 nəfər heyət üzvü olub. Son əlaqə zamanı heyət qayıqda qəza baş verdiyi barədə məlumat çatdırıb.

Hazırda axtarış əməliyyatlarında ABŞ, Fransa, Böyük Britaniya, Braziliya, Çili və Rusiya da yaxından iştirak edir.

# İKİ YÜK GƏMİSİNİN TOQQUŞMASI NƏTİCƏSİNDƏ 12 NƏFƏR İTKİN DÜŞÜB

***Çinin cənubundakı Quandun vilayətinin sahil sularında 2 yük gəmisinin toqquşması nəticəsində yaranan qəzada 12 nəfər heyət üzvü itkin düşüb.***

5 min ton qum daşıyan gəmi təxminən bir o qədər də poladla yüklənmiş digər gəmi ilə toqquşandan sonra batıb. Batan gəmidən 2 heyət üzvü, habelə digər gəmidən 11 nəfər xilas edilib.

Hazırda itkin düşən heyət üzvlərinin axtarışları davam etdirilir. Axtarış işlərinə 30 xilasetmə gəmisi, bir helikopter və bir neçə digər növ gəmi cəlb olunub.

*Şahin Cəfərov*



# MÜHACİRLƏRİ DAŞIYAN QAYIQ YOXA ÇIXIB

***Yunanıstanın sahil mühafizə xidməti Peloponnes dairəsinin qərbində yerləşən Pilos şəhəri yaxınlığında dənizdə yoxa çıxan qayığı axtarır.***

Afinanın AMNA agentliyi tərəfindən yayılan ilkin məlumata əsasən, qayıqda 45 qaçqın və mühacir olub.

Yerli KİV-lər yazırlar ki, qaçqınlardan biri telefon vasitəsilə Avropanın təcili xidmət orqanlarına – 112 nömrəli qaynar xəttə zəng edərək qayığın mühərrikində nasazlıq yarandığı barədə məlumat verib. O, vəziyyətin təhlükəli olduğunu bildirib və yardım istəyib.

Hazırda axtarış-xilasetmə əməliyyatlarında sahil mühafizə xidmətinin gəmisi, balıqçı gəmisi və hərbi aviasiyanın helikopteri iştirak edir.





## TELEFONUNUZA KİMİN BAXDIĞI BARƏDƏ XƏBƏRDAR EDİLƏCƏKSİNİZ

***"Google" şirkətinin tədqiqatçıları istifadəçini onun çiyni üzərindən telefon ekranına baxan şəxslər haqqında xəbərdar edən proqram hazırlayıblar.***

Şirkətin məlumatına görə, kompüter təlimindən istifadə edən proqram təminatı qurğu sahibi olmayan və ekrana baxan şəxsin sifətinin müəyyənləşdirilməsi üçün smartfonun ön kamerasını tətbiq edir. Proqram real vaxt rejimində istifadəçini smartfon ekranında yad şəxsin mətn oxuması və ya internet səhifəsini izləməsi barədə xəbərdar edir.

Tədqiqatçıların dərc etdiyi videoda "Google Hangouts" messencerində aparılan yazışmanın smartfonun ön kamerası tərəfindən ekrana baxan tanış olmayan insanlar aşkarlanan zaman dəfələrlə dayandırılmasını görmək mümkündür. Yad insanın üzü qırmızı çərçivəyə alınır, sifətin aşağı hissəsində isə istifadəçinin xəbərdarlığı dəqiq görməsi üçün rəngli zolaq əmələ gəlir. Bundan başqa, ekranda "A STRANGER IS LOOKING ALERT!!!" bildirişi görünür.

Məlumata görə, hazırda funksiyanın işinin texniki xüsusiyyətləri haqqında ətraflı məlumat verilməsə də, əminliklə demək olar ki, proqram təminatı qurğu sahibi olmayan insanların sifətini tanıya və gözlərinin vəziyyətini izləyə bilir.

"Neuro Information Processing Systems" (NIPS) konfransında təqdim ediləcək texnologiya hazırda tam funksiyadan daha çox elmi layihə şəklindədir.

## SÜRÜCÜSÜZ AVTOBUSLARIN SINAQLARINA BAŞLANIB

***Yaponiyanın Okinava prefekturasında süni naviqasiya peykləri vasitəsilə idarə olunan sürücüsüz avtobusların sınaqları kütləvi-informasiya vasitələrinin nümayəndələrinə təqdim edilib.***




Bu proqramın həyata keçirilməsinə oktyabr ayında uzunluğu 20 kilometr olan ictimai təyinatlı yolda başlanıb.

ABŞ-a məxsus qlobal mövqe təyinetmə sistemi ilə əlaqələndirilən "Michibiki" süni peyki nəqliyyat vasitəsinin hərəkəti zamanı yol veriləbiləcək yayınmaları 10 metrdən bir neçə santimetrədək azaltmağa imkan verir.

Yaponiya Nazirlər Kabineti həmin avtobuslardan 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya və Paralimpiya Oyunları zamanı istifadə etməyi planlaşdırır.



## SUYUN ƏN DƏRİN QATINDA YAŞAYAN BALIĞIN VİDEOSU YAYIMLANIB

***Alimlər Sakit Okeanda yerləşən Marian çökəkliyində bu günədək elmə məlum olanlar arasında ən dərinlikdə yaşayan balığı aşkarlayıblar. Qeyri-adi balığın videosu YouTube video-portalında yerləşdirilib.***

"The Independent" qəzeti xəbər verir ki, "Marian ilbizi" (Mariana snailfish) adı verilən bu balıq növü okeanın 8,1 kilometr dərinliyində yaşayır. Bununla yanaşı, alimlər qeyd edirlər ki, balıqların yaşaması üçün maksimum dərinlik nəzəri olaraq 8,2 kilometr təşkil edir.

"Marian ilbizi" barədə məruzə hazırlayan Vaşinqton Universitetinin mütəxəssislərinin sözlərinə görə, balıq ekstremal şərtlərdə yaşamaq üçün uyğun görünməsə də, əslində öz yaşayış mühitinə əla uyğunlaşıb.

## GƏMİLƏRİN TOQQUŞMASINDAN ÖLƏN VƏ İTKİN DÜŞƏNLƏR VAR

***Cənubi Koreyanın qərb sahil sularında göyərtəsində 22 nəfərin olduğu balıqçı qayığı Yeonqhun adası yaxınlığında tanker ilə toqquşaraq aşıb.***



Cənubi Koreya Sahil Mühafizə Xidmətinin məlumatına istinadla xəbər verir ki, qəza nəticəsində balıqçı qayığındakı 13 nəfər ölüb, 2 nəfər itkin düşüb.

Bildirilir ki, səhər erkən saatlarda, dənizə açılandan 9 dəqiqə sonra baş verən hadisə zamanı ölənlərin sayının çox olması suyun soyuq və dənizdə güclü cərəyanın olması ilə əlaqədardır.

Hadisə yerində axtarış işlərinə 14 gəmi və 4 helikopter cəlb olunub.

Daha bir oxşar hadisə Səudiyyə Ərəbistanında baş verib. Burada da neft tankeri balıqçı gəmisi ilə toqquşub.

"SPA" agentliyi xəbər verir ki, Səudiyyə Ərəbistanının milli neft şirkəti "Saudi Aramco"ya məxsus neft tankerinin balıqçı gəmisi ilə toqquşması nəticəsində 4 Hindistan vətəndaşı xilasedicilər tərəfindən qurtarılıb. İtkin düşmüş bir nəfərin isə axtarışı davam etdirilir.

## ALMANİYADA PİS VƏZİYYƏTƏ DÜŞMƏK İSTƏMİRSİNİZSƏ...

***Pis vəziyyətə düşməmək və cərimə olunmamaq üçün turistlərə, elə almanların özünə də Almaniyanın şəhər və kəndlərinin küçələrində hansı hərəkətləri etməməyi bilmək vacibdir. AZƏRTAC həmvətənlərimiz üçün qeyri-adi, Almaniyada isə qayda pozuntusu sayılan hərəkətlərin siyahısını təqdim edir.***



Məsələn, bu yaxınlarda Düsseldorfda 86 yaşlı təqaüdçüyə dayanacaqda oturub dincəldiyinə görə cərimə yazıblar. Buna səbəb – həmin dayanacaqdan onun təyinatına aid olmayan məqsədlər üçün istifadə edilməsi olub, çünki bu şəxs orada avtobus gözləmirdi. Almaniyanın bəzi regionlarında əgər siz stansiyada və dayanacaqda elə-belə oturmusunuzsa, həqiqətən də cərimə tətbiq edilir. Təqaüdçüyə 35 avro cəriməni ödəmək lazım gəlməyib, çünki o, demensiya və ürək xəstəliyindən əziyyət çəkirmiş və ona dincəlmək vacib idi. Yalnız müvafiq tibbi arayış təqdim ediləndən sonra təqaüdçünün üzərindən cərimə götürülüb.

Bu qayda praktikada az istifadə olunsa da, Almaniyanın bir çox şəhərlərində ictimai nəqliyyatda alkoqol qəbul etmək həqiqətən də qadağandır. Avtobus, metro və tramvaya pivə və çaxır şüşəsi ilə daxil olmaq mümkündür. Lakin alkoqol şüşəsini nəqliyyatda açıb qəbul etmək qadağan edilir. Bu qaydalar Berlin, Münxen, Nürnberq, Ştutqart və Duysburqa tətbiq edilir. IC и ICE tipli sürətli qatarlara bu, aid edilmir.

Banan qabığı, alma cecəsi və hətta giləmeyvə tumlarını yerə atmaq olmaz: belə hərəkətlərə görə cərimə 10 avrodan 20 avroyadəkdir.

Qayıdaq ictimai nəqliyyata. Şaurma və ya kartof-frinin qoxusu çətin ki, digər sərnişinlərin xoşuna gələ bilər. Bu səbəbdən avtobus, metro və tramvaylarda yemək-içmək xoş qarşılanmır. Əgər siz yeməyiniz və ya içkinizlə oturacağı çirkləndirsəniz, o halda 40 avro cərimə ödəməlisiniz.

2017-ci ilin aprelindən Kölndə qəlyan çəkmək qadağan olunub. Amma bu qadağa şəhərin yalnız bir ərazisinə - Reyn sahilində yerləşən Doyts rayonuna aiddir. Qayda pozanların 75 avrodan 150 avroyadək cərimə ödəmək qorxusu var.

Siqareti küçədə çəkmək və sonra kötüyünü yerə atmaq yaxşı ideya deyil. Bu hərəkətə görə cərimə 20 avrodur.

Saqqız da zibilə aiddir, onu da təyin olunmayan yerə atanların cəzası 10-20 avro arası təşkil edir.

Almaniya parklarında çiçək kərdisindən buket toplamaq və ya gül dərmək cəzasız ötüşməyəcək. Buna görə cərimələr lazımıncadır. Bu, dəcəllik deyil, maddi ziyanın vurulmasıdır.

"Wildpinkler" – Almaniyada ayaqyoluna "çata bilməyən" adamları belə adlandırırlar. Yaxşısı budur, belə zarafat etməyəsiniz. Çünki bu hərəkəti törədən ən pis halda bir ilədək azadlıqdan məhrum edilə bilər. Xuliqanlığa görə minimal cərimə isə 35 avrodur.

*Vüqar Seyidov*

## ÖLÜMÜNÜ ƏVVƏLCƏDƏN HİSS EDƏN NƏHƏNG CANLI

***Fil heyvanlar aləmində ən böyük canlı hesab edilir. Nəhəng görkəmə malik fillərin əcdadları o qədər də böyük olmayıb. Tədqiqatlar nəticəsində müəyyən olunub ki, keçmiş zamanlarda onların boyu cəmi 1 metrə çatıb. Təbiətin nəhəng canlıları nə az, nə çox 70-80 il ömür sürürlər. Bədəncə ağır çəkili olan heyvanlar dözümlülükləri ilə bir çox meşə heyvanlarından seçilirlər.***



Fili qiymətli və məşhur edən onun 2 metrlik dişləri və 5 tona yaxın çəkisidir. Hər 10-15 ildən bir fillər dişlərini dəyişirlər. Amma təbiətin qəribə varlıqları öz qəribəlikləri ilə də elm adamlarını çaşqın vəziyyətdə qoyur. Afrika həkimləri 400 fili müayinə edəndən sonra aşkar ediblər ki, yeməyi otdan ibarət olan nəhəng heyvanlar skleroz xəstəliyinə tutula bilirlər. Halbuki indiyədək belə güman edilirdi ki, həmin xəstəliyə daha çox yağlı-piyli qida qəbul edənlər tutulurlar.

Fillər çimməyi də çox sevirlər. Onlar çayın qabağını ağac və daşla kəsərək dərinliyi 2 metrədək olan hovuz düzəldir, isti günlərdə hovuzda həvəslə çimirlər. Filin ağlı olduğunu sübut edən digər fakt hər kəsi təəccübləndirir. Alimlər bir müddət fillərin skeletinin harada yerləşdiyini tapa bilmirdilər. Sonralar aydın oldu ki, fil ölümünün yaxınlaşdığını hiss edən kimi özünü çaya və bataqlığa atır.

Onların sadiqliyi isə həqiqətən də örnək sayıla bilər. Filin biri xəstələnəndə digəri onun qulluğunda dayanır, qidalanmaq üçün yemək və su gətirir və acından ölüb qurd-quşa yem olmamasına çalışır. Alimlərin marağına səbəb olan digər bir məqam isə onlarla filin nizami ordu kimi ard-arda düzülərək irəliyə doğru addımlamasıdır.

Aşağı tezlikli səslər yayaraq kilometrlərlə məsafədən belə xəbərləşə bilən fillərin bir-birlərinin ayaq səslərini çox uzaqdan hiss edib başa düşə bildikləri məlum olub. Fillər titrəyişləri yayan sürüdən nə qədər uzaq olsalar, siqnallara bir o qədər az əhəmiyyət verirlər. Qeyd edək ki, fillər heyvanlar arasında ən möhkəm cəmiyyətə sahib olanlardır. Elm adamları müəyyən ediblər ki, hazırda yer üzündə onların 10 növü yaşayır. Təəssüf ki, onların nəsli kəsilmək təhlükəsi qarşısındadır.

Bu maraqlı heyvanların sümükləri dəyərli olduğundan dünyada onların ovlanmağı qadağan edilsə də, brakonyerlər filləri rahat buraxmırlar. Öldürülmüş heyvanların sümüklərindən qiymətli aksesuarlar hazırlanır və dünya bazarına çıxarılır.

## "TELEFON ASILILIĞI" HANSI FƏSADLARA SƏBƏB OLA BİLƏR?

***Şimali Amerika Radiologiya Cəmiyyətinin illik görüşündə çıxış edən koreyalı alimlər bildiriblər ki, "telefon narkomanları"nın beyinin işi üzərində aparılan müşahidələr bu aludəçilik nəticəsində beyinin kimyəvi tarazlığını dəyişməsi, onu real narkomaniya ilə müqayisə etməyə əsas verir.***

"RİA Novosti" agentliyinin saytı bildirir ki, son illərdə alimlər asılılığın iki yeni forması ilə ciddi maraqlanmağa başlayıblar. Xalq arasında "telefon narkomaniyası" və "internet narkomaniyası" adlanan bu asılılıqların tədqiqi göstərir ki, adi insanlar çox vaxt haqlıdırlar. Belə asılılıqların bəzi daşıyıcılarının davranışında həqiqətən real narkomanlar üçün səciyyəvi dəyişikliklər müşahidə olunur və onlara da eyni risk amilləri təsir edir.



Məsələn, keçən il alimlər müəyyən ediblər ki, bu asılılıqların qurbanı əksər hallarda öz istəklərinə lazımınca nəzarət edə bilməyən impulsiv insanlardır. Müşahidələr göstərir ki, bu cür xarakteristikalar təhlükəli vərdişdən müstəqil şəkildə yaxa qurtarmağı bacarmayan alkoqoliklərin və real narkomanların fərqləndirici xüsusiyyətidir.

Alimlər bir məsələ ilə də maraqlanıblar: bu cür "rəqəmsal" asılılıq formalarından əziyyət çəkən insanların beyninin fəaliyyəti dəyişirmi və bu cür dəyişikliklər narkotiklərin və spirtli içkilərin qurbanlarının sinir sistemində baş verən dəyişikliklərə oxşayırmı?

Mütəxəssislər bu suala cavab vermək üçün yarısına bu cür diaqnoz qoyulmuş iyirmi nəfər yeniyetmə və gəncdən ibarət iki könüllü qrup yaradıb beyinin müxtəlif hissələrinin kimyəvi tərkibini təhlil etməyə imkan verən xüsusi maqnit-rezonans tomoqrafından istifadə etməklə həmin könüllülərin sinir sisteminin fəaliyyətini müşahidə etməyə başlayıblar.

Koreyalı bioloqlar alınan nəticələri müqayisə edərək müəyyənləşdiriblər ki, telefon və ya internet "narkomaniyasının" inkişafı həqiqətən beyinin işini kimyəvi səviyyədə dəyişir. Beyin qabığının insanın impulsiv davranışına və həyəcan hissinə görə cavabdeh olan hissələrində daha ciddi pozuntular müşahidə olunub. Bu müşahidələr həmin asılılığın necə yaranmasını izah edə bilər.

Maraqlıdır ki, həmin gənclər Seulun narkoloji mərkəzlərindən birində bərpa kursu keçəndən sonra bu cür pozuntular tamamilə aradan qalxıb və ya nəzərəçarpacaq dərəcədə azalıb. Bu, onu göstərir ki, asılılığın bu formasından insan psixikası və orqanizmi üçün ciddi fəsadlar baş vermədən xilas olmaq həqiqətən mümkündür.

## YARIZARAFAT, YARIGERÇƏK

**Kimsə sizin haqqınızda pis fikirdədirsə, dərhal narahat olmayın. Çünki bəzi adamlar yaxşı fikrin nə olduğu barədə təsəvvürə belə malik deyillər.**

**Mən adam tanıyıram ki, onda yaxşıları çıxmaq şərti ilə yer üzündəki bütün adamların sifəti var.**

**Görəsən, beynəlxalq standartlara görə, indiki cavanlar yaşlılara salam verməlidirlər, yoxsa yox?**

**Başqasının varı ilə varlanmaq olar, başqasının ağlı ilə ağıllanmaq isə mümkün deyil.**

**Səni istəyənlərin çoxu adətən mənfəəti üçün istəyir.**

**Adam içinə çıxası olmayanlar adamın gözünə niyə girirlər?**

**Yaza bilməyənlərin gözündə yazmaqdan asan şey yoxdur.**

**Heç görmüsünüz ki, yaxşılıq etmək dəbdə olsun?**

**Bildiklərim qara qəpiyə də dəyməzmiş. Çox adamı Kişi bildim.**

**Bəzi adamlara vaxtında qapını göstərməyəndə sonralar pəncərəyə baxa-baxa qalırsan.**

**Özünüzü yaxşı tanıyırsınızsa, kimlərinsə sizi tanımamasından narahat olmayın.**

**Vaxtında və yerində qoya bilsən, nöqtə bütün işarələrin ən yaxşısıdır.**

**Sübut istəyirsən? Gözlərin deyir ki...**

**Bəziləri sözlə yeməyi qarışdırırlar. Daha çox sözü çeynəyirlər.**

**Nər sirdirsə, pulluların ətrafındakı adamların əksəriyyəti əkizlər kimi bir-birinə oxşayırlar.**

**Dil sirr saxlamaq üçün deyil.**

**Riyakarlığı harada öyrənirlər?**

**Hər şeyin yağ kimi getməsi üçün yağ lazım deyil.**

**Özünü təmizə təmiz olduğun qədər çıxara bilərsən.**

**Adətən pulu olanın vaxtı olmur, vaxtı olmayanın pulu. Mənim isə onsuz da nə vaxtım var, nə də pulum.**

**İndi söz buzdan pisdir. Çox adam üstündə dayana bilmir.**

**Axmaqlarla işləyirsənsə, risk həmişə var.**

**Bəzilərinin iş metodu: daha böyük yalanla daha irəli!**

**Diriykən ölənlərə görə başsağlığı kimə verilməlidir?**

**Başqalarından fərqli olaraq, mən gedəndə arxamca danışmağa ehtiyac olmayacaq. İndi danışırlar.**

**Yalançılar da həqiqətsiz keçinə bilmirlər. Ən azı, yalan danışdıqları həqiqətdir.**

**Heç kəsə çox yaxınlaşmayın. Daha yaxşı tanıyacağınızdan peşman ola bilərsiniz.**

**Nə qədər ki, pul var, vəzifə var, şöhrət var, pulun, vəzifənin, şöhrətin köləsi də olacaq.**

**Əmin ol ki, mənim uduzacağım adam ən azı sən olmayacaqsan.**

**Hər an gələ biləcəyini bilsək də, gələcəyini düşünmədiyimiz bir şey var:ölüm.**

**Barmağına tikan batan kimi ufuldayanlar bəs şikəst düşüncələrinə görə niyə heç vaxt narahat olmurlar?**

**Yaltaqlıq adlı üfunətli bataqlıqda gör nə qədər məmnun üz var.**

**Yaltaqlığa heç kimi məcbur eləmirlər. Hamısı könüllülərdir.**

**Mən kimisə vəzifəsindən imtina etməyə çağırmıram. Yaltaqlardan imtina da belə çətin işdir?**

**İkiüzlülər o qədər çoxalıb ki, hər birinin üzünə tüpürməyə ya vaxt tapmazsan, ya da tüpürcək.**

**Yatanda gözlərimiz bağlı olur. Ayıq vaxtı da çox şeyə göz yumuruq. Belə çıxır ki, ən çox gözlərimiz dincəlir.**

**Saysız oyunlar ola-ola, niyə ən çox əsəblərimizlə oynayırlar?**

**Həqiqət üçün elə darıxmışam ki... Təsadüfən, siz tərəflərdə danışmırlar?**

*Rasif TAHİROV*

## DƏNİZÇİ XANIMIN DAHA BİR İDMAN UĞURU





***Əl Oyunları Sarayında "Kick-Boxing Free Contact" idman növü üzrə "World Budo Martial Arts Cup 2017" dünya çempionatı keçirilib.***

Yarışda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Dəniz Nəqliyyat Donanmasının əməkdaşı Fəridə Abdullayeva da öz gücünü sınayıb. 50 kq çəki dərəcəsində döyüşən xanım cəldliyi və peşəkarlığı hesabına birincilik qazanıb.

Bundan öncə – oktyabrda Fəridə Abdullayeva Kikboksinq üzrə Açıq Bakı Çempionatında da eyni uğura imza atmışdı.

Onu da deyək ki, Fəridə Abdullayeva Azərbaycan Dövlət Dəniz Akademiyasının məzunudur. Hazırda Dəniz Nəqliyyat Donanmasının Donanmanın İstismar Xidmətində çalışır.

## GÜLƏŞ ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONATI YENİ QAYDALARLA KEÇİRİLƏCƏK






***Dekabrın 14-dən 18-dək Bakı İdman Sarayında böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə növbəti Azərbaycan çempionatı keçiriləcək.***

Gənclər və İdman Nazirliyi və Azərbaycan Güləş Federasiyasının (AGF) birgə təşkilatçılığı ilə keçiriləcək yarışda 18 yaşı tamamlamış, 1999-cu il və yuxarı təvəllüdlü idmançılar iştirak edə bilərlər. Şəxsi xarakter daşıyan yarışda idman cəmiyyətləri, idman klubları, idman təşkilatları, şəhər və rayon yığma komandalarının tərkibinə daxil olan idmançılar mübarizə aparacaqlar.

Dünya Güləş Birliyinin qaydalarına əsasən keçiriləcək yarış Azərbaycan Güləş Federasiyası Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olunacaq. Sərbəst güləşçilər 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kiloqram, yunan-Roma güləşçiləri isə 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kiloqram çəki dərəcələrində qüvvələrini sınayacaqlar.

Azərbaycan çempionatı bu il yeniyetmə güləşçilərin qitə və dünya birinciliklərində sınaqdan keçirilən və 2 günlük yarış proqramı üzrə təklif olunan yeni qaydalara uyğun təşkil olunacaq. Belə ki, yarışlardan bir gün öncə püşkatma mərasimi, ilk yarış günündə ilkin və təselliverici görüşlər, ikinci yarış günündə isə final görüşləri keçiriləcək. Əvvəllər bir gün öncə baş tutan çəki mərasimi bundan sonra yarış günləri keçiriləcək və finala vəsiqə qazanmış idmançılar iki dəfə çəki prosesinə cəlb olunacaq. İkinci dəfə tərəziyə çıxan idmançılara normadan 2 kiloqramadək artıq çəkidə güləşməyə icazə veriləcək.

Çəki dərəcələri üzrə ilk 3 yeri tutmuş idmançılar AGF tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə mükafatlandırılacaq, onlar ölkə yığma komandasının heyətinə cəlb ediləcək və il ərzində komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək imkanı qazanacaqlar.



## ŞƏHRİYAR MƏMMƏDYAROV DÜNYA ŞAHMAT TACI UĞRUNDA İDDİAÇILAR TURNİRİNƏ QATILACAQ

***Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov dünya şahmat tacı uğrunda iddiaçıların turnirində iştirak edəcək. Turnir Berlinin "Külhaus" sərgi mərkəzində keçiriləcək.***

Bu, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) İspaniyada keçirilən Qran-Pri yarışlarının yekun mərhələsinin nəticələrindən sonra bəlli olub.

İddiaçıların turniri 2018-ci il martın 10-dan 28-dək Berlində keçiriləcək. Turnirin yekununa görə hazırkı dünya çempionu norveçli Maqnus Karlsenin rəqibi təyin olunacaq.

Almaniya paytaxtına yarışlarda iştiraka cəmi 8 nəfər, o cümlədən FIDE Qran-Pri yarışlarının ümumi hesabının yekunlarına görə Şəhriyar Məmmədyarov, rusiyalı Aleksandr Qrişşuk, dünya kubokunun nəticələrinə görə Levon Aronyan (Ermənistan), Dinq Liren (Çin), təşkilatçı ölkədən namizəd Vladimir Kramnik (Rusiya), dünya tacı uğrunda uduzmuş Sergey Karyakin (Rusiya), FIDE-nin reytinqinə görə Fabiano Karuana, Uesli Co (hər ikisi ABŞ-dan) yollanacaq.

Dünya şahmat tacı uğrunda iddiaçılar turnirinin mükafat fondu 420 min avro təşkil edir.

## HİPERTONİYADAN QORUNMAQ YOLLARI



***Arterial hipertoniya bir sıra xəstəliklərin inkişafına səbəb olur, ilk növbədə isə həyati vacib orqanlara - ürək, baş -beyin, böyrək və gözlərə ziyan vurur. Həmin orqanlar hipertoniya xəstəliyi nəticəsində o qədər ziyan çəkir ki, kardioloqlar onları "hədəf orqanlar" adlandırırlar, - deyə söhbət açan həkim-terapevt, tibb üzrə fəlsəfə doktoru Azadə Rəhimova AZƏRTAC-a verdiyi müsahibədə hipertoniyadan qorunmaq yolları barədə danışıb.***

Onun dediyinə görə, bunun üçün ilk növbədə təzyiqi müntəzəm nəzarətdə saxlamaq, hətta arterial təzyiq heç vaxt yuxarı olmayanda da profilaktik məqsədlə vaxtaşırı ölçmək lazımdır. İstənilən yaş və cins üçün təzyiqin normal səviyyəsi 100-139/60-89 mm civə sütunu həkimlər tərəfindən optimal göstərici kimi dəyərləndirilir. Ölçmə vaxtı 139/89 mm civə sütunu təyin olunursa, bu, təzyiqə nəzarət etmək üçün əsaslı səbəbdir. 140/90 və ondan yuxarı olanda kardioloqa və ya sahə həkiminə müraciət edilməlidir.

Hipertoniyanın uğurlu müalicəsi yalnız müalicə həkimindən deyil, həm də xəstənin özündən asılıdır. Həkimin təyin etdiyi müayinələrdən keçmək müalicə taktikasını seçmək üçün çox vacibdir: qan və sidiyin ümumi analizi və elektrokardioqrafiya müayinəsi aparılır. Təyin olunan dərmanlar müntəzəm şəkildə qəbul edilməlidir. Xəstə həkimin tələbi ilə adət etdiyi həyat tərzini dəyişməli, sağlam qidalanmalı və aktiv yaşamağın vacib olduğunu dərk etməlidir.

Hipertoniya xəstələrinin qidası barədə həkim deyib: "Xəstənin çəkisi ilə arterial təzyiqin səviyyəsi arasında birbaşa əlaqə vardır. Qeyri-düzgün qidalanan, duzlu və yağlı qidalardan, alkoqoldan sui-istifadə edən və artıq çəkisi olanlarda hipertoniyaya beş-altı dəfə çox rast gəlinir. Kardioloqların müşahidələrinə görə, çəkinin 10 kiloqram artması təzyiqin 2-3 mm civə sütunu yüksəlməsinə səbəb olur. Çoxsaylı elmi tədqiqatlar nəticəsində müəyyən olunub ki, həddindən çox xörək duzunun istifadəsi arterial təzyiqin artmasına aparıb çıxarır. Artıq çəkili xəstələr və yaşlılar qidada xörək duzunun miqdarına qarşı daha həssasdırlar. Gün ərzində 2 qramdan artıq duz qəbul edilməməli və çox duzlu ərzaqlar rasiondan çıxarılmalıdır".

Həkim-terapevt xəstəliyin profilaktikasında fiziki aktivliyin də əhəmiyyətini söyləyib: "Az hərəkətli həyat tərzi keçirən və idman məşğələləri etməyənlərdə arterial təzyiq normada olsa da, hipertoniyanın inkişaf riski aktiv həyat tərzi keçirənlərə nisbətən 20-50 faiz yüksəkdir. Hətta sürətli yeriş, sağlamlaşdırıcı qaçış, həftədə 3-5 dəfə yarım saat üzmək və digər fiziki məşqlər arterial təzyiqi 5-10 mm civə sütunu aşağı sala bilər. Hipertoniklər ağır statik fiziki yüklərdən uzaq olmalıdırlar, çünki ağırlıq qaldırmaq təzyiqi artırır. Arterial təzyiqi tənzimləmək yolunda ən vacib məsələlərdən biri də alkoqol və siqaretçəkmə kimi zərərli vərdişlərdən qurtulmaqdan ibarətdir".

## YUNAN-ROMA GÜLƏŞÇİLƏRİMİZ BİRİNCİ, SƏRBƏST GÜLƏŞÇİLƏRİMİZ İSƏ İKİNCİ OLUBLAR




***Tehranda kiçik yaşlı yeniyetmə güləşçilər arasında "Day of children" beynəlxalq turniri keçirilib. Komanda yarışı xarakterli turnirdə sərbəst və yunan-Roma güləşi üzrə kiçik yaşlı yeniyetmələrdən ibarət yığma komandalarımız iştirak ediblər.***

Sərbəst güləş yarışlarında Azərbaycan güləşçiləri ilə yanaşı, İranın 4 komandası, Ukrayna, Rusiya, Gürcüstan, İraq, Belarus, Qırğızıstan və Ermənistan komandaları mübarizə aparıblar. Dörd qrup üzrə keçirilən yarışda yığmamız İran və Ermənistan komandaları ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran güləşçilərimiz yarımfinala vəsiqə qazanıblar. Yarımfinalda Ukrayna güləşçilərinə də qalib gələn yığmamız finala yüksəlib. Həlledici görüşdə daha bir İran komandası ilə qarşılaşan güləşçilərimiz ümumi hesabda 4:6 hesabı ilə məğlub olub və turniri ikinci sırada tamamlayıblar.

Yunan-Roma güləşi yarışlarında isə Azərbaycan güləşçiləri ilə yanaşı, İranın 4 komandası, Ukrayna, İraq, Qazaxıstan, Moldova, Gürcüstan və Ermənistan komandaları mübarizə aparıblar. Dörd qrup üzrə keçirilən yarışda yığmamız İran və Qazaxıstan komandaları ilə qarşılaşıb. Hər iki görüşü qələbə ilə başa vuran güləşçilərimiz yarımfinala vəsiqə qazanıb. Yarımfinalda Moldova güləşçilərinə də qalib gələn yığmamız finala adlayıb. Qızıl medal uğrunda görüşdə Ukrayna komandası ilə qarşılaşan güləşçilərimiz ümumi hesabda 6:4 hesabı ilə qalib gəlib və turnirin baş mükafatına sahib olublar.

## YUXUNUZ ŞİRİN OLSUN



***Yuxu beyin fəaliyyəti normasının minimal səviyyəyə enməsi və ətraf aləmə olan reaksiyaların azalması ilə müşayiət olunan təbii fizioloji prosesdir. Bütün canlı varlıqlar öz güclərini təzələmək və həyat fəaliyyətini davam etdirmək üçün istirahətə ehtiyac duyur. Yuxu istirahət növü kimi cismi və zehni fəaliyyəti gücləndirir.***

AZƏRTAC xəbər verir ki, yuxu və onun xüsusiyyətləri barədə danışan Bakı Sağlamlıq Mərkəzinin həkim-nevroloqu Sevinc Salamova deyib: "Yuxuya getməzdən əvvəl mürgüləmə vəziyyəti olur. Mürgü zamanı ətrafdakı bəzi səslər eşidilir, hətta yuxu şəkilləri də "görünür". Qəfildən sanki yıxıldığımızı hiss edir və vəziyyətdən çıxmağa çalışırıq. Gözümüzü açanda başa düşürük ki, heç hara yıxılmırıq, sakitcə və dinc vəziyyətdə yatağımıza uzanmışıq.

Əslində nə baş verir? Alimlər müəyyən ediblər ki, mürgüləyərkən bədənin temperaturu dəyişir. Tənəffüs yavaşıyır, əzələlər gərginlikdən çıxır. Beyin həmin vəziyyəti yıxılmaq kimi qəbul edir və bərk bir yerə dirənmək, söykənmək üçün ayaqlara siqnal göndərir. Ona görə də ayaqların qeyri-iradi dartınması və qıcolması ilə yuxudan ayılırıq.

Həkimlər həmin vəziyyəti "hipnozlu dartınma" və ya "yuxu qıcolması" adlandırırlar. Gecə qıcolmalarına təxminən 70 faiz hallarda rast gəlmək mümkündür.

Normal yuxu üçün düzgün yatmaq qaydası və yuxu rejimi seçmək lazımdır. Təbii ki, uzun illərin pis vərdişindən yaxa qurtarmaq o qədər də asan olmur. Bir müddət yuxuyagetmə çətinləşir, yuxu qaçır. Lakin bunun əvəzində şirin yuxu, sağlam bədən və sağlam ruh qazanmaq mümkündür. Arada yanı üstə çevrilmək olar, lakin bunu edəndə qəddi bükməmək, büzüşməmək, ən başlıcası isə özünü yenidən arxası üstə uzanmağa məcbur etmək lazımdır. Gec-tez həmin vəziyyətə alışmaq lazım gələcək.

Sual oluna bilər: bunun sağlamlıq üçün nə əhəmiyyəti var? Əvvəla, düz uzanarkən bədənin bütün hissələri yükü bərabər şəkildə bölüşdürür - bir əzaya çox, digərinə az ağırlıq düşmür, qan rahat dövr edir. İkincisi, ayaq üstə qalarkən, yaxud iş masası arxasında əyləşərkən əyilən, yerindən oynayan fəqərələr düzəlir. Bundan əlavə bərk yataq dərinin öz funksiyasını düzgün yerinə yetirməsinə şərait yaradır, qaraciyər bağlarının gərilməsinin qarşısını alır. Aşağı və yuxarı ətrafların venaları qanı geri, ürəyə tərəf qovur. Bu da öz növbəsində qaraciyərin fəal işləməsini təmin edir. Nəticədə gün ərzində orqanizmdə yığılan toksik maddələr ondan kənar edilir. Lakin iş bununla bitmir, arxası üstə yatanda sinirlər müxtəlif təzyiq və gərilmələrə məruz qalmır.

Sağlamlıq qidadan asılı olduğu qədər fəqərə sütununun vəziyyətindən də asılıdır. Məşhur yapon naturopat alimi K.Nişi xəbərdarlıq edirdi: "Yumşaq yataqda xumarlanıb sinirlərin eyforiya olmasına və iflic vəziyyətə düşməsinə imkan verdikdə xəstəliklər dəvət gözləmədən qapını döyəcəkdir". Çünki sinir lifləri sıxılarkən qaraciyərin sekresiyası pozulur və qantəmizləmə işinin pozulmasına səbəb olur, qan toksinlərdən təmizlənə bilmir. Çirklənmiş qan orqanizmdə dövr edir və bunun nəticəsində orqanlar sağlam olur".

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3567